Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 75 (8098) ÇƏRŞƏNBƏ AXŞAMI, 9 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Biz 10 milyonuq!



## Demoqrafik artım həm də sosial rifahın, iqtisadi yüksəlişin, ictimai sabitliyə əminliyin təzahürüdür

**Sayımız 10 milyona çatdı. Qürurverici məqamdır...**
**Bu gün əhalisinin sayına görə dünyanın 247 ölkəsi arasında 88-ci yerdə qərarlaşan Azərbaycan Avstriya, Bolqarıstan, Belarus kimi ölkələri geridə qoyur.**

Müstəqillik tariximizlə müqayisə etdikdə isə daha maraqlı mənzərənin şahidi oluruq. Əgər 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə ölkə əhalisinin sayı 1,9 milyon idisə, bu gün bu sayın 5 dəfə artdığını görürük. 1991-ci ildə müstəqillik yenidən elan ediləndə isə əhalinin sayı 7,2 milyon nəfər idi. 28 ildə 2,8 milyon nəfər, yəni 40 faizə yaxın artmaqla bu gün 10 milyon nəfərik.

Dünyanın bir çox ölkəsində əhalinin sayında azalma müşahidə edildiyi halda, Azərbaycanda artım davam edir. Təbii ki, demoqrafik artımı şərtləndirən amillər - sosial tərəqqi, iqtisadi yüksəliş və daxili təhlükəsizlik olmadığı halda ölkədə hansısa artımdan söhbət gedə bilməz. Əhalisinin sayı hər il sabit şəkildə artan Azərbaycan məhz belə ölkələrdəndir. Yəni həyata keçirilən sosial-iqtisadi siyasətin əsas uğurlarından biri kimi dayanıqlı inkişaf şəraitində Azərbaycanda müsbət demoqrafik şərait bərqərar olub.

2003-cü ildən ölkədə reallaşmağa başlayan sosial-iqtisadi islahatlar, əldə olunmuş davamlı makroiqtisadi sabitlik, əhalinin sosial müdafiə sisteminin gücləndirilməsi, yoxsulluğun azaldılması və əhalinin həyat səviyyəsinin yüksəlməsi demoqrafik inkişafa da müsbət təsir göstərib. Bu dövr ərzində əhalinin sağlamlığının möhkəmləndirilməsi istiqamətində görülən tədbirlər nəticəsində ölüm səviyyəsinin, xüsusən körpə ölümünün azalması bugünkü reallığı təcəssüm etdirir.

Əslində 10 milyonuncu Azərbaycan vətəndaşı, gözəl Mehriban balanın məhz 2019-cu ildə dünyaya gəlişinin də bir rəmzi mənası var. Onun mövludu Azərbaycanda islahatların ən yüksəkkeyfiyyətli mərhələsinə təsadüf edir. İlin əvvəlindən başlayaraq Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar 3 milyondan artıq vətəndaşın sosial durumunun yaxşılaşdırılmasına xidmət edir. Maaşlar, pensiyalar, təqaüdlər, müavinətlər, Prezident təqaüdləri orta hesabla 50-100 faiz qaldırılıb.

16 il öncə keçirilən prezident seçkilərində xalqın mütləq əksəriyyətinin etimadını qazanan İlham Əliyev iqtisadiyyatın yüksəlməsi, neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində həyata keçirdiyi layihələrdən əldə edilən dividendlər hesabına bu gün əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində inqilabi addımlar atır. Həyata keçirilən sosial siyasət əhalinin rifah halının yüksəlməsinə, xüsusilə aztəminatlı və imtiyazlı təbəqələrin sosial durumunun yaxşılaşdırılmasına xidmət edir. Müharibə şəraitində olmasına baxmayaraq, bütün sahələrdə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan daha qüdrətli dövlətə çevrilmək istiqamətində inamla irəliləyir.

Doğulan hər körpə dünyaya ümid, sevinc, gözəllik gətirdiyi kimi, Mehriban balanın da ayağı Azərbaycan üçün xeyirli-düşərli olar və 10 milyonluq Azərbaycan hər keçən gün yeni-yeni uğurlara imza atar!..

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## QƏDƏMLƏRİN MÜBARƏK, MEHRİBAN!..

*Gəlişinlə milyonları sevindirdin...*
*Uğur rəmzinə çevrildin...*
*Qüdrətli Azərbaycanın, yaralı Qarabağın övladı...*
*Süngülənən körpələrimizin, şəhid oğul-qızlarımızın ölməz ruhundan pərvəriş tapan...*
*Dünyaya gəlişinlə Azərbaycan xalqının əbədiyaşar olduğunu sən də müjdələdin...*
*Düşmənə göz dağı doğuldun...*
*Sabaha inamımız, xalqımızın sevinci...*
*Mehribanımız...*

❖❖❖

Elə körpə Mehriban gəlişiylə haqq səsimizi də bu nahaq dünyaya hayqırmış oldu...

O, ana yurdu düşmən tapdağında olan məcburi köçkün kimi gözlərini açdı bu dünyaya...

Taleyinə, qismətinə hələ doğulmamış qaçqınlıq, köçkünlük yazıldı...

Xocalının, Şuşanın, Laçının, Kəlbəcərin, Ağdamın körpələri kimi...

Amma onun doğuluşu həm də ümidlərimizi şöləndirdi, qeyri-rəsmi bayramımıza çevrildi...

Keçmiş Ağdərə rayonunun sakini balaca Mehriban Ağdamın Baş Güneypəyə kəndindəki məcburi köçkünlər üçün salınmış qəsəbədə böyüyəcək...

Amma o gün də uzaq deyil ki, tezliklə Mehriban işğaldan azad olunmuş vətən torpaqlarımızda təhsil alacaq, sevdiyi sənətə sahib olacaq, gəlin köçəcək...

❖❖❖

10 milyonuncu sakinimizin qız doğulmasının özü də bu gün bütün dünyada diskriminasiyaya məruz qalan qız uşaqlarının qaranlıq dünyasına bir nur saçdı...

Onun doğuluşu hələ ana bətnlərində doğulmamış qətl edilən minlərlə qız uşağının həyata vəsiqə qazanmasına bir vəsilə oldu...

Heç təsadüfi deyil ki, məhz bu körpəyə də Azərbaycan qadınlarının simvoluna çevrilmiş Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın adı qoyuldu...

Birinci xanım kimi Azərbaycan xalqının layiqli övladı olması, bəşəri ideyaların davamçısı, həm də əsl vətənpərvər olması arzusunu diləyirik...

Bu gün hər bir ailədə minlərlə körpənin qayğısız, şən gülüş sədası yüksəlir...

Bu isə hər birimizdə əminlik yaradır ki, Azərbaycan bilikli, cəsur, igid balaları sayəsində bu gün də var, gələcəkdə də daim var olacaq...

Xoş gəldin, balaca Mehriban!

Qədəmlərin mübarək, doğma yurdumuzun 10 milyonuncu sakini...

Mehribanımız...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



## Xoşbəxtsən ki, vətənin Azərbaycandır sənin...

**Salam, 10 milyonuncu vətəndaş! Dünyamıza, yurdumuza xoş gəldin. Sağlam böyü, xoşbəxt yaşa. Ayağın sayalı olsun.**

Bu il aprelin 6-da Bakı şəhərində Rauf Həsənov və Nigar Orucovanın ailəsində Azərbaycanın 10 milyonuncu vətəndaşının dünyaya göz açması bütün xalqımızın sevincinə səbəb olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu münasibətlə Azərbaycan xalqını və körpənin valideynlərini təbrik ediblər.

Ölkə sakinlərinin sayının 10 milyona çatması münasibətilə aprelin 7-də Dənizkənarı Milli Parkda atəşfəşanlıq və konsert oldu. Camaat əsl bayram əhvali-ruhiyyəsində idi. Bu da təsadüfi deyil.

Azərbaycanın əhalisi ildən-ilə artır. Əhali əsasən təbii artımla, yəni yeni doğulanların hesabına çoxalır. Doğumun səviyyəsi ölümün səviyyəsini iki dəfədən çox üstələyir. Bu isə heç də hər xalqa, hər ölkəyə nəsib olan xoşbəxtlik deyil. Başqa sözlə, Azərbaycan digər sahələrdə olduğu kimi, demoqrafiya baxımından da nümunəvi ölkədir.

Dünyanın bir çox ölkələrində demoqrafik vəziyyətin gərgin olduğu indiki zamanda əhalinin təbii artımla çoxalması müsbət və sevindirici haldır. Odur ki, qoy düşmən də baxıb xar olsun. İqtisadiyyatı çökən, əhalisi dəstə-dəstə baş götürüb ölkədən qaçan Ermənistanın rəhbərlərinə, ölkəni bu acınacaqlı vəziyyətə salan separatçılara və vandallara görk olsun. Biz isə artırıq, çoxalırıq. Torpağımızın azadlığı, dövlətimizin müstəqilliyi uğrunda verdiyimiz şəhidlərin yeri boş qalmır. Şair demişkən: "Yüz-yüz öldüksə də, yarandıq min-min".

10 milyonuncu vətəndaşımızın ata-anası Qarabağdandır. Ağdərə rayon sakinləri, hazırda Ağdam rayonunun Baş Güneytəpə kəndində qeydiyyatda olan məcburi köçkünlərdir. Onların ailəsində çəkisi 3,6 kiloqram, boyu 52 santimetr olan tam sağlam bir uşağın dünyaya gəlməsi də sıradan bir fakt deyil.

Azərbaycan dövləti qaçqın və məcburi köçkünlərin səhhətini, məişətini, güzəranını daim diqqətdə saxlayır.

Ümumiyyətlə, ölkədə əhalinin sayının dinamik şəkildə artması dövlətin apardığı uğurlu sosial-iqtisadi siyasətdən qaynaqlanır. Son vaxtlar, o cümlədən bu ilin əvvəlindən Prezident İlham Əliyevin sosial sahədə hətta dünyanın inkişaf etmiş ölkələri üçün nümunə ola biləcək islahatları əhalinin rifah halının yüksəldilməsinə böyük təkan verir. Sosial-iqtisadi inkişaf isə əhalinin artım tempini qoruyub saxlayan başlıca amildir.

Dövlətin həyata keçirdiyi ardıcıl tədbirlər bu artıma da hesablanır. Bu, yalnız yeni doğulanlara görə hər ailəyə verilən müavinətlərlə, çoxuşaqlı analara ödənilən aylıq vəsaitlə, uşaqların və qadınların sağlamlığına yönəldilən və digər bu kimi tədbirlərlə məhdudlaşmır. Getdikcə artan əhalinin hərtərəfli ehtiyacını qarşılamaq üçün genişmiqyaslı işlər həyata keçirilir. Bunlar uşaq bağçaları və məktəblərin, müalicə ocaqlarının, idman komplekslərinin şəbəkəsinin genişləndirilməsi, ərzaq bolluğu yaradılması, yeni iş yerlərinin açılmasına yönəldilən tədbirlərdir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransdakı nitqində Prezident İlham Əliyev bu barədə demişdir: "Son 15 il ərzində 2 milyon yeni iş yeri yaradılmışdır. Əhalinin sayı isə 1,6 milyon artmışdır. Bu da çox gözəl göstəricidir. Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər. Ancaq, əlbəttə, biz bundan sonra da işimizi elə görməliyik ki, iqtisadi inkişaf, iş yerlərinin yaradılması əhalinin artımından daha da sürətli getsin, artan əhali işlə təmin olunsun".

Necə deyərlər, Azərbaycan dünyaya gələn vətəndaşlarını əliboş qarşılamır.

10 milyonuncu vətəndaşımız xoşbəxt doğulub ki, vətəni Azərbaycandır. Xoşbəxt doğulub ki, ailəsevər, oğul-uşaqla pərvazlanan, qürurlanan bir xalqın övladıdır.

Valideynləri ona Mehriban adı veriblər. Bu, Azərbaycan analarının və uşaqlarının böyük himayədarı olan Birinci vitse-prezident, birinci xanım Mehriban Əliyevaya insanların sevgi və ehtiramının ifadəsidir.

Adı ilə böyüsün bu balaca qız! Adına layiq olsun! Mehribanlığı və Azərbaycan xanımlarına məxsus bütün digər ali keyfiyyətləri yaşatsın şəxsiyyətində!

Qız övladı Azərbaycan ailəsində həmişə sevimli olub. Nənələrimiz deyiblər ki, qız uşağı xoşqədəm olar, öz gəlişi ilə ruzi-bərəkət, əmin-amanlıq gətirər.

Lakin bu da bir həqiqətdir ki, indi bütün dünyada bir sıra ailələr qız uşağına mənfi münasibət göstərir. O cümlədən, Azərbaycanda bəzi gənc valideynlərin günahı ucbatından, yəni qızların dünyaya gəlməsinə sədd çəkildiyindən ölkə əhalisinin tərkibində qadınların sayı ildən-ilə azalır. Belə bir zamanda 10 milyonuncu vətəndaşın qız olması Tanrının bizlərə bir bəxşişi olmaqla yanaşı, həm də təbiətin qanunlarını, yaratdığı tarazlığı pozanlara bəlkə bir xatırlatmasıdır?!

Xoş gəlmisən bu dünyaya, qız bala! Bakımız qürur mənbəyin, Xəzər seyrəngahın, Göygöl güzgün olsun. Ömrünün illəri Kürün, Arazın suları kimi axıb tükənməsin.

Ağdərə çəmənlərində lalə dəstələyəsən, Şuşa dağlarında xarıbülbül dərəsən!..

Azad, müstəqil Azərbaycanın xoşbəxt vətəndaşı ol!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Samux Rayon Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, səhiyyə obyektlərinin tikintisinin davam etdirilməsi məqsədi ilə **qərara alıram:**

1. Samux Rayon Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.12-ci yarımbəndində göstərilən vəsaitin 1,0 (bir) milyon manatı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2019-cu il*

## Dünya Bankının prezidenti cənab Devid Malpassa

Hörmətli cənab Prezident!

Dünya Bankının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Dünya Bankı arasındakı əməkdaşlığa böyük əhəmiyyət veririk. Bu baxımdan ölkəmizdə həyata keçirilən iqtisadi islahatlarda, gerçəkləşdirdiyimiz iri-miqyaslı infrastruktur layihələrinin maliyyələşdirilməsində Dünya Bankının yaxından iştirakını məmnunluqla qeyd etmək istərdim.

Ümidvaram ki, Dünya Bankının fəaliyyət sahələri üzrə əməkdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bir daha Sizə öz təbriklərimi yetirir, möhkəm cansağlığı, qarşıdakı məsul işinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2019-cu il*

## Şəmkir rayonunun Şəmkir-Zəyəm-Düyərli-Şiştəpə-Bayramlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Səksən beş min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Şəmkir-Zəyəm-Düyərli-Şiştəpə-Bayramlı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 14,0 (on dörd) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2019-cu il*

## E.T.Bağırovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Elçin Tələt oğlu Bağırov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2019-cu il*

## Milli Məclisdə TürkPA-nın İqtisadi Əməkdaşlıq Komissiyasının 7-ci iclası keçirilib

Aprelin 8-də Milli Məclisdə Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) İqtisadi Əməkdaşlıq Komissiyasının 7-ci iclası keçirilib.




AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan parlamentlərinin deputatları, diplomatlar, TürkPA katibliyinin əməkdaşları iştirak ediblər.

İclası açan komissiyanın sədr müavini, Qırğızıstan Joqorku Keneşinin (parlament) üzvü Salaidin Aydarov bildirib ki, dünya bazarına inteqrasiya baxımından elm və iş adamlarının qarşılıqlı əməkdaşlığı çox vacibdir. Elmin iş adamlarına dəstək verməsi, texnoloji yeniliklərin tətbiqi, bu sahədə qanunvericiliyin yenilənməsi baxımından bu tədbir mühüm əhəmiyyət kəsb edir. Vurğulanıb ki, iclasda "Ortaq texnologiyanın inkişafı: TürkPA üzv ölkələrinin elm və iş birlikləri arasında çoxtərəfli əməkdaşlıq" mövzusunda hesabat layihəsi ətrafında müzakirələr aparılacaq, tövsiyə qərarı qəbul ediləcək.

Türkiyə Böyük Millət Məclisinin üzvü Mustafa Levent Karahocagil bildirib ki, yeni texnologiyalar istehsal prosesinə əhəmiyyətli dərəcədə töhfə verə bilir. Texnologiyanın inkişafı isə elmsiz mümkün deyil. Bunun üçün də texnologiyanın inkişafına kömək edə biləcək yerli mütəxəssislərin xarici ölkələrə üz tutmasının qarşısı alınmalıdır. Qeyd olunub ki, türk dünyasının vahid İş Şurasının yaradılması prezidentlərimizin də razılaşdığı bir məsələdir.

Qırğızıstanlı ekspert Şarabidin Amatov öz ölkəsində yeni texnologiyaların tətbiqi vəziyyəti barədə məlumat verib. O, təbii sərvətlərdən düzgün istifadə etmək üçün Qırğızıstanda yeni texnologiyaların tətbiqi üçün görülən işlərdən danışıb.

Qazaxıstan Senatının üzvü Sarsenbay Yensegenov, Azərbaycan Milli Məclisinin deputatı İlham Əliyev, TürkPA-nın baş katibi Altınbek Mamayusupov hesabat layihəsi barədə qeyd və təkliflərini bildiriblər.

Müzakirələrin sonunda "Ortaq texnologiyanın inkişafı: TürkPA üzv ölkələrinin elm və iş birlikləri arasında çoxtərəfli əməkdaşlıq" mövzusunda tövsiyə qərarı qəbul olunub. İclasda bir sıra təşkilati məsələlərə də baxılıb.

Tədbirə yekun vuran komissiyanın sədr müavini, Qırğızıstan Joqorku Keneşinin üzvü Salaidin Aydarov iclasın yüksək səviyyədə təşkilinə görə Milli Məclisin rəhbərliyinə təşəkkürünü bildirib.

Bununla da Türkdilli Ölkələrin Parlament Assambleyasının İqtisadi Əməkdaşlıq Komissiyasının 7-ci iclası başa çatıb.

## Milli Məclis Sədrinin müavini Bahar Muradova seçicilərlə görüşüb

Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova Füzuli rayonunun Əhmədbəyli, Mahmudlu və Yağlıvənd kəndlərində rayon rəhbərliyinin və aidiyyəti orqanların rəhbərlərinin iştirakı ilə seçicilərlə görüş keçirib.



AZƏRTAC xəbər verir ki, görüş Aprel zəfərini xalqımıza bəxş edən qəhrəman şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb.

Çıxış edən Bahar Muradova bütün xalqımızı və Füzuli sakinlərini şanlı zəfər tariximizin üçüncü ildönümü münasibətilə təbrik edib. Dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə güclənən ordumuzun bu gün işğalda olan bütün torpaqlarımızı ən qısa müddətdə düşmən tapdağından azad etməyə qadir olduğunu bildirib. Aprel zəfərinin bunun bir daha bizə əyani sübutu olduğunu deyən Bahar Muradova qeyd edib ki, Azərbaycan Ordusu dünyanın ən güclü və ən yaxşı silahlarla təchiz olunmuş ordusu sıralarındadır.

Daha sonra çıxış edən rayon sakinləri, bu qələbəni onlara yaşadan dövlət başçısına təşəkkürlərini bildiriblər. Qeyd ediblər ki, bu gün onların hər biri cəbhənin təmas xəttində Ali Baş Komandanın döyüş əmrinə hər an hazırdır. Son zamanlarda imzalanan fərman və sərəncamların əhəmiyyətindən danışan rayon sakinləri dövlət başçısının diqqət və qayğısını hər zaman hiss etdiklərini vurğulayıblar. Məcburi köçkünlər üçün nəzərdə tutulan aylıq müavinətin artırılmasının isə onların yaşayış şəraitinin daha da yaxşılaşmasına böyük dəstək olduğunu qeyd ediblər.

Milli Məclisin deputatı seçicilərin sosial, məşğulluq, əmək, mənzil, əmlak və digər məsələlərlə bağlı müraciət və şikayətlərini dinləyib. Müraciət edən vətəndaşların üzləşdiyi problemlərin və qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunub.

## Bakıda "Az avtomobil - çox həyat" devizi altında veloyürüş keçirilib

Aprelin 7-də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) təşəbbüsü ilə Dünya Sağlamlıq Günü ilə əlaqədar Bakıdakı Veloparkda "Az avtomobil - çox həyat" devizi altında veloyürüş keçirilib.



AZƏRTAC xəbər verir ki, veloyürüş Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) və Dünya Səhiyyə Təşkilatının (DST) təşkilatçılığı, Azərbaycan Velosiped İdmanı Federasiyası və Respublika Olimpiya Velosiped Məktəbinin dəstəyi ilə təşkil olunub.

Məqsədi insanlara sağlam həyat tərzini aşılamaq və avtomobilsiz istirahət günü ənənəsini təbliğ etmək olan veloyürüşdə Gənclər və İdman Nazirliyinin, Dövlət Təhlükəsizlik Xidmətinin, Dövlət Gömrük Komitəsinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Bakı Nəqliyyat Agentliyinin, SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin nümayəndələri, Dövlət İdarəçilik Akademiyasının və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbələri iştirak ediblər.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev bildirib ki, ətraf mühitin sağlamlaşdırılması, insanlara sağlam həyat tərzinin aşılanması məqsədi daşıyan veloyürüş ikinci dəfədir təşkil olunur. Belə aksiyaların davamlı olacağına inandığını deyən nazir müavini iştirakçılara nazirlik adından minnətdarlıq edib.

Sonra yürüşə start verilib.

Veloyürüşdə iştirak edən qurumlar diplomlarla təltif olunublar.

Nazirliyin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova bildirib ki, ekoloji cəhətdən təmiz nəqliyyat növü olan velosiped həm insanların, həm də təbiətin dostudur. "Velosiped sürmək sağlamlıqdır, eyni zamanda, atmosferi və ətraf mühiti təmiz saxlamaqdır, az tullantı isə saglam həyat üçün şərait deməkdir. Bizim də niyyətimiz odur ki, ölkəmizdə insanların sağlam həyatı üçün davamlı şərait olsun. İnsanlarımız sağlam, təbiətimiz və havamız təmiz olsun. Ağacəkmə aksiyaları, atmosferin və Xəzər dənizinin çirkləndirilməsinin qarşısının alınması ilə əlaqədar atılan addımlar, plastik və polietilen məmulatların istifadəsinin azaldılması ilə bağlı tədbirlər də məhz bu məqsədə xidmət edir".

Yürüş iştirakçılarından biri, Bakı Nəqliyyat Agentliyinin mətbuat katibi Mais Ağayev Ekologiya və Təbii Sərvətlər Nazirliyinin keçirdiyi veloyürüşü dəstəklədiklərini və onun önəmli təşəbbüs olduğunu qeyd edib. M.Ağayev, həmçinin bildirib ki, əhalinin velosiped sürməyə artan marağını, bunun insanların sağlamlığı və ətraf mühitinin mühafizəsi baxımından əhəmiyyətini nəzərə alaraq Bakı Nəqliyyat Agentliyi tərəfindən uyğun infrastrukturun yaradılması üçün tədbirlər görülür: "Velosipeddən istifadənin təşviqi, bunun üçün şəhərdə uyğun infrastrukturun - velosiped yollarının, zolaqlarının yaradılması agentliyin qarşıdakı illərdəki əsas fəaliyyət planına daxil edilib. Velosiped yollarının təşkili ilə bağlı bir neçə layihə üzərində iş aparılır. Müzakirə mərhələsində olan layihələrdən birində Bakı Olimpiya Stadionu ilə Böyükşor gölünün ətrafında 18 kilometrlik velosiped yolunun təşkili ilə bağlı məsələlər nəzərdən keçirilir. Eyni zamanda, şəhərin mərkəzini əhatə edən velosiped yol şəbəkəsinin tətbiqi istiqamətində təhlillər aparılır. Ümid edirəm ki, qarşıdakı illərdə Bakıda da velosiped yolları olacaq və əhali rahat şəkildə velosipeddən istifadə edəcək".

Dünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı sağlamlıq üçün fiziki aktivliyin əhəmiyyətli olduğunu vurğulayaraq deyib: "Dünya Sağlamlıq Günü bir sıra ölkələrdə müxtəlif aksiya və kampaniyalarla qeyd edilir. Bakıda "Az avtomobil - çox həyat" devizi altında keçirilən veloyürüş sağlamlıq üçün aktiv həyat tərzinin, açıq havada gəzməyin vacibliyinə diqqət çəkmək məqsədi daşıyır".

Aksiya iştirakçılarından olan İSİM-in şöbə müdiri Səbinə Babazadə deyib: "Bu gün biz iki əlamətdar günü birlikdə qeyd edirik. Belə ki, aprelin 6-sı Dünya Fiziki Aktivlik Günü, 7-si isə Dünya Sağlamlıq Günüdür. Velosiped sürmək fiziki aktivlik olmaqla yanaşı, sağlamlıq üçün faydalıdır. Belə ki, insanlar aktiv həyat tərzinə üstünlük verməklə qeyri-infeksion xəstəliklərdən özlərini qorumuş olurlar. Ümid edirəm ki, insanlar öz sağlamlıqlarına fikir verəcək və yalnız bu gün yox, hər zaman fiziki cəhətdən aktiv olacaqlar. Biz hər kəsi öz sağlamlığına nəzarət etməyə səsləyirik".

Yürüşdə iştirak edən Dövlət İdarəçilik Akademiyasının III kurs tələbəsi Mail Kərimov aksiyaya qoşulmaqdan məmnunluğunu dilə gətirib: "Yürüşdə iştirak etdiyim üçün çox sevinirəm. Çünki ətraf mühitin mühafizəsinə, sağlam həyat tərzinin təbliğinə yönəlmiş tədbirdə az da olsa töhfə verdim. Dünya Sağlamlıq Gününə həsr olunmuş bu aksiya təşviqat xarakteri daşıyır. Mən də gəncləri, öz həmyaşıdlarımı zərərli vərdişlərdən uzaq durmağa, idmanla məşğul olmağa və sağlamlıq üçün avtomobil sürməkdən daha çox piyada gəzməyə və velosipeddən istifadə etməyə səsləyirəm".

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçilərinin 2019-cu ilin aprel ayında respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəli

**11 aprel 2019-cu il**

1. Beyləqan rayonu
2. Qusar rayonu
3. Lerik rayonu
4. Saatlı rayonu
5. Kəlbəcər rayonu

**25 aprel 2019-cu il**

1. Gəncə şəhəri
2. Goranboy rayonu
3. Qobustan rayonu
4. Samux rayonu
5. Zaqatala rayonu

**Qeyd:** Qəbullar şəhər və rayonlarda saat 10:00-da başlayır.

## Kiyevdə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin nümayəndələri ilə Ukrayna Milli Qvardiyasının rəhbər heyəti arasında görüş keçirilib

Azərbaycanın Ukraynadakı səfirliyində Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin (XDMX) nümayəndələri ilə Ukrayna Milli Qvardiyasının rəhbər heyəti arasında səfirliyin mühafizəsi mövzusunda işgüzar görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə Ukraynada, xüsusən paytaxt Kiyevdəki ictimai-siyasi vəziyyət, kriminogen durum, eləcə də əməliyyat şəraitinə təsir edə biləcək digər məqamlar müzakirə olunub, iki qurum arasındakı əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri nəzərdən keçirilib.

Azərbaycan ilə Ukrayna arasında təhlükəsizlik sahəsində səmərəli əməkdaşlığın mövcud olduğunu deyən səfir Azər Xudiyev bildirib ki, ölkələrimiz arasında ənənəvi dostluq və tərəfdaşlıq münasibətləri getdikcə güclənməkdədir. İstər ikitərəfli münasibətlərdə, istərsə də beynəlxalq təşkilatlarda Azərbaycan və Ukrayna bütün sahələrdə bir-birini dəstəkləməkdədir. XDMX-nin idarə rəisi, polkovnik Ceyhun Qəmərli qeyd edib ki, Azərbaycan Respublikasının Ukraynadakı səfirliyi 2014-cü ilin iyulundan etibarən Xüsusi Dövlət Mühafizə Xidmətinin Diplomatik Nümayəndəliklərin Mühafizə İdarəsinin əməkdaşları tərəfindən mühafizə olunur. Elə həmin tarixdən Ukrayna Milli Qvardiyası ilə əlaqələr və işgüzar münasibətlər yüksək səviyyədədir. Təhlükəsizlik məsələlərində də qarşılıqlı əlaqələr uğurla inkişaf edir.

Ukrayna Milli Qvardiyası qərargahının rəisi vəzifəsini icra edən general-mayor Aleksandr Oleşenko, müavini general-mayor İqor Timoşenko çıxışlarında birgə fəaliyyətin səmərəliliyindən, əməkdaşlığın inkişaf perspektivlərindən danışıblar.

Görüşdə Ukrayna Milli Qvardiyasının 5 illik yubileyi münasibətilə Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi, general-polkovnik Vaqif Axundovun Ukrayna Milli Qvardiyasının komandanına ünvanladığı təbrik məktubu oxunub. Eyni zamanda qeyd olunub ki, XDMX rəisinin müvafiq əmri ilə iki qurum arasındakı əməkdaşlığın inkişafındakı xidmətlərinə görə Ukrayna Milli Qvardiyasının komandanı, general-polkovnik Y.V.Allerov "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı ilə təltif edilib.

General-mayor A.Oleşenko bildirib ki, Ukrayna Milli Qvardiyası komandanının əmri ilə hərbi əməkdaşlığın inkişaf etdirilməsindəki xidmətlərinə görə Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi, general-polkovnik V.Ə.Axundov "Ukrayna Milli Qvardiyasının Ordeni" ilə təltif olunub. Eyni zamanda, XDMX Diplomatik Nümayəndəliklərin Mühafizə İdarəsinin bir neçə hərbi qulluqçusu Milli Qvardiyanın "Əməkdaşlıq sahəsində" döş nişanı ilə təltif edilib.

Görüşdə Azərbaycanın Ukraynadakı səfirliyinin hərbi attaşe aparatının rəhbəri, polkovnik İlqar Ağayev və səfirlik kompleksinin mühafizə rəhbəri, mayor Ceyhun Yaqubov da iştirak ediblər.

## XİN: "Azərbaycan NATO-ya üzv ölkələr üçün öz ərazisindən keçən dəhlizi bağlayır" ifadəsi həqiqətə uyğun deyil

"Bu günlərdə bəzi kütləvi informasiya vasitələrində yayılan "Azərbaycan NATO-ya üzv ölkələr üçün öz ərazisindən keçən dəhlizi bağlayır" ifadəsi həqiqətə uyğun deyil. Vəziyyətin aydınlaşdırılması məqsədilə qeyd etmək istərdik ki, Azərbaycan dəhliz mənasında heç kimə, o cümlədən NATO-ya hər hansı ərazisini vermir. Burada söhbət NATO-nun Əfqanıstanda həyata keçirdiyi və Azərbaycanın da iştirakçısı olduğu "Qətiyyətli Dəstək" missiyasının üzvlərinə ölkə ərazisindən, o cümlədən quru, hava və su məkanından sözügedən missiya çərçivəsində müvafiq yük daşımalarının həyata keçirilməsi üçün müvafiq imkanının təmin edilməsindən gedir. Belə bir təcrübə 2001-ci ildən mövcuddur. Bu imkanların təmin olunması üçün NATO üzv ölkələrinin müvafiq uçuş icazələrinin əldə edilməsi müraciətləri ikitərəfli əsaslarda nəzərdən keçirilir. Sözügedən müraciətlərə Azərbaycan tərəfinin müvafiq qayda və prosedurlarına uyğun olaraq, eləcə də tərəfdaşlığın təməlini təşkil edən dövlətlərin bir-birlərinin suverenliyi və ərazi bütövlüyünə hörmət və əməkdaşlıq prinsipləri əsasında baxılır".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayevanın açıqlamasında yer alıb.

Açıqlamada deyilir ki, bu günədək Azərbaycan məhz bu prizmadan yanaşaraq NATO-nun Əfqanıstanda həyata keçirdiyi missiyasına, eləcə də ümumiyyətlə bölgədəki sülh və təhlükəsizliyə öz töhfəsini verib. ABŞ və digər NATO ölkələri Əfqanıstana uçuşlarını məhz Azərbaycan ərazisindən istifadə etməklə həyata keçirirlər. Digər tərəfdən, bu gün Azərbaycan trans-regional əlaqələndirmə ölkəsi kimi tanınır. Azərbaycan ərazisinin quru və su məkanı üzərindən tranzit imkanları yaradılıb. 2017-ci ildən etibarən fəaliyyətə başlayan Bakı-Tbilisi-Qars dəmir yolu xətti və ötən ildən Ələt Beynəlxalq Dəniz Limanının tam fəaliyyətə keçməsi bu xüsusda yeni imkanlar açıb. NATO-nun bir neçə üzv ölkəsi Əfqanıstana yük daşımalarını məhz bu yollardan istifadə etməklə təmin edirlər. Bütün bu qeyd olunanların müsbət dəyərləndirilməsinin davamı olaraq cari il aprelin 4-də Vaşinqtonda NATO-nun baş katibi mətbuat konfransında açıqlama ilə çıxış edərək qeyd edib ki, Azərbaycan Alyansın yaxın tərəfdaşıdır və ölkəmiz beynəlxalq sülh və təhlükəsizliyin bərqərar olunmasında NATO ilə sıx əməkdaşlıq edir. Baş katib, həmçinin Azərbaycanın NATO-nun "Qətiyyətli Dəstək" missiyasına əhəmiyyətli hərbi qüvvə və multimodal tranzit töhfəsi verdiyini qeyd edib, bu xüsusda, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Əfqanıstana daşımalar zamanı istifadə olunduğu və bu dəmir yolunun Alyansın "Qətiyyətli Dəstək" missiyasına mühüm töhfə verdiyini vurğulayıb. "Vurğulamaq istərdik ki, baş katib NATO ölkələrinin kollektiv mövqeyini təqdim edir və baş katibin sözügedən bəyanatı da məhz bu əsaslarda verilib.

Bununla yanaşı, son günlər Almaniya mətbuatına sızılmış məlumatlar və ittihamlar anlaşılmazlıq yaratmaqla yanaşı, kiminsə qərəzliliyindən xəbər verir. Əsassız ittihamları özündə əks etdirən bu məlumatlar konkret faktlara əsaslanmır. Bir daha bildiririk ki, Azərbaycan müvafiq tərəfdaşlıq prinsipləri əsasında və beynəlxalq hüququn normalarına uyğun olaraq NATO-ya üzv ölkələr ilə əməkdaşlıq edib, hazırda edir və gələcəkdə də bu əməkdaşlığı davam etdirməyə hazırdır.

Almaniya KİV-inə sızılmış məlumata istinadən müşahidə etdiyimiz uydurma kampaniya yanlışdır və Azərbaycan haqlı olaraq gözləyir ki, Almaniya hökuməti müvafiq şəkildə özü bu məsələni cavablandıracaq. Azərbaycan NATO-ya üzv ölkələrin müraciətlərinə bundan sonra da müvafiq şəkildə baxmağa davam edəcək", - deyə açıqlamada vurğulanır.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş





Aprelin 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Tacikistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rüstəm Soli ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri qonağı salamlayıb, Naxçıvan Muxtar Respublikasının ərazisi, sərhədləri, idarəetmə quruluşu və iqtisadi inkişafı haqqında ətraflı məlumat verib. Blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikada kənd təsərrüfatı və sənayenin inkişaf etdiyini, enerji və ərzaq təhlükəsizliyinin təmin olunduğunu bildirən Ali Məclisin Sədri yerli istehsalın və ixracın həcminin artırılması sahəsində görülən işlərdən danışıb. Yaşayış məntəqələrinin sürətli internetlə və rabitə xidməti ilə təmin olunduğunu bildirən Ali Məclisin Sədri elm, nəqliyyat və təhsil müəssisələrinin fəaliyyətinə toxunub, turizm potensialını diqqətə çatdırıb.

Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Tacikistan arasında əlaqələrin inkişafı üçün imkanların olduğunu vurğulayıb və səfərin əhəmiyyətini qeyd edib.

Səfir Rüstəm Soli səmimi görüşə görə minnətdarlıq edib, Naxçıvanda olmaqdan məmnunluq duyduğunu bildirib. Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərindəki muzeyi ilə tanışlığın onda dərin təəssürat yaratdığını qeyd edən diplomat ölkələrimiz arasındakı əlaqələrin inkişafında ulu öndərin xidmətlərini xatırladıb, Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafını vacib məsələ kimi dəyərləndirib.

# ADA Universitetində "dəyirmi masa": "Nüvə və yüksək enerji fizikası XXI əsrdə hara gedir?"

Aprelin 8-də ADA Universitetində "Nüvə və yüksək enerji fizikası XXI əsrdə hara gedir?" mövzusunda "dəyirmi masa" keçirilib.

AZƏRTAC xəbər verir ki, "Birləşmiş Nüvə Tədqiqatları İnstitutu (BNTİ) ilə Azərbaycan arasında nüvə fizikası, elementar zərrəciklər fizikası və zərrəcik detektorları sahəsində əməkdaşlığın üfüqləri" mövzusunda beynəlxalq seminar çərçivəsində keçirilən "dəyirmi masa"ya ABŞ-ın Merilend Universitetinin professoru, akademik Roland Saqdeyev moderatorluq edib.

Tədbirdə Flerov adına nüvə reaksiyaları laboratoriyasının direktoru Sergey Dmitriyev, Antiproton və ion tədqiqatı mərkəzinin (FAIR) elmi direktoru və idarə heyətinin sədri Paolo Qubellino (Almaniya), Praqada Çex Texniki Universiteti nəzdindəki Eksperimental və Tətbiqi Fizika İnstitutunun direktoru İvan Stekl mövzu ətrafında çıxış ediblər.





S.Dmitriyev "Mendeleyev dövrü cədvəlində ən ağır elementlər. Bu gün və gələcək" mövzusunda təqdimat edib. O, belə tədbirlərin Azərbaycanın müvafiq sahəyə töhfə verməsi baxımından böyük əhəmiyyət daşıdığını bildirib.

P.Qubellino sədrlik etdiyi FAIR-in fəaliyyəti barədə məlumat verib. Bildirib ki, bu müəssisə dünyada ən geniş "Data mərkəz"lərindəndir. Alim tədqiqat mərkəzinin həyata keçirdiyi layihələr nəticəsində əldə olunan yeni kəşflər və izotoplar barədə də danışıb. Mərkəzin həyata keçirdiyi layihədə 9 ölkənin beynəlxalq payçı və 1 ölkənin assosiativ tərəfdaş kimi çıxış etdiyini diqqətə çatdırıb. Mərkəzin kosmik radiasiyadan mühafizə sahəsində də eksperimentlər apardığını deyən P.Qubellino bu araşdırmaların uğurlu nəticələri olaraq daha uzaq, məsələn, Mars planetinə kosmik səfərlərin asanlaşacağını qeyd edib.

"Nüvə və zərrəciklər fizikası" mövzusunda təqdimatla çıxış edən İ.Stekl bildirib ki, XXI əsrdə zərrəciklər fizikası qarşısında duran ən aktual məsələ yüksək enerji fizikası sahəsində güclü kollayderlər vasitəsilə zərrəciklərin araşdırılması olub. O, həmçinin XXI əsrdə bu sahədə aşağı enerji fizikası və aşağı sıxlıqlı elementlərin araşdırılmasının əhəmiyyətinin artdığını qeyd edib. İ.Stekl rəhbərlik etdiyi institutun apardığı son eksperimentləri və layihələri diqqətə çatdırıb.

Sonda akademik R.Saqdeyev bildirib ki, beynəlxalq seminar çərçivəsində BDU ilə Çex Texniki Universiteti nəzdindəki Eksperimental və Tətbiqi Fizika İnstitutu arasında imzalanmış əməkdaşlıq protokolu gələcəkdə Azərbaycanın bu sahədə beynəlxalq əməkdaşlığa qoşulmasına təkan verəcək.

# Azərbaycan nümayəndə heyətinin rəhbəri AŞ PA-nı obyektiv hesabat hazırlamağa çağırıb

Azərbaycan Respublikası Prezidentinin imzaladığı əfv sərəncamı nəticəsində yüzlərlə məhkum azadlığa buraxılıb. Dövlət başçısı ölkədə məhkəmə sistemində islahatların aparılması ilə bağlı fərman imzalayıb. Azərbaycanda görülən belə müsbət işlər də hesabatlarda göstərilməlidir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) yaz sessiyasının ilk günündə qurumun Bürosunun və Daimi Komitəsinin hesabatı ilə bağlı müzakirələrdə Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov söyləyib.

S.Seyidov hesabatın vacibliyini qeyd edərək onun obyektiv tərtib edilməsinə çağırıb. O deyib: "Azərbaycanla bağlı həmişə mənfi fikirlər səsləndirilir. Xatırlamıram ki, belə hesabatlarda nə vaxtsa Azərbaycanda görülən müsbət işlər də sadalansın. Bu, təəssüf doğurur. Hesabatda ölkədə gedən inkişaf prosesləri qeyd edilməlidir".

Nümayəndə heyətinin rəhbəri erməni deputatın təhrif edilmiş məlumatlarla və nifrət dolu çıxışına sessiyanın müvafiq iclasında baxılmasına da çağırıb. "Regionumuzda çox dəyişikliklər baş verir. Ancaq müstəsna olaraq dəyişməyən erməni deputatın nifrət dolu çıxışıdır. Bu çıxış assambleyanın demokratik və digər dəyərlərinə tamamilə ziddir. Sessiyada nifrətə qarşı mübarizə ilə bağlı müzakirələrdə bu məsələyə baxılacaq", - deyə S.Seyidov diqqətə çatdırıb.

# Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahat və yeniliklər Dayanıqlı İnkişaf Məqsədlərinin uğurlu icrasına töhfə verir

BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (AİK) 68-ci sessiyası çərçivəsində aprelin 8-də BMT-nin Cenevrədəki ofisində Avropa şəhərlərinin rəhbərlərini bir araya gətirən "Şəhərlər günü" keçirilir. Tədbir "Ağıllı dayanıqlı şəhərlər: Dayanıqlı inkişafın aparıcıları" mövzusuna həsr edilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə ölkəmizi Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.

"Şəhərlər günü" yaxşı təcrübə və uğurlu şəhər planlaması sahəsində bilik və fikirlərin mübadiləsi məqsədilə keçirilir və bu tədbirdə BMT-nin AİK-in əhatə etdiyi regiondan əlliyə yaxın mer, şəhər idarəçiləri və digər şəhər məsələləri üzrə məsul şəxslər bir araya gəliblər. İki "dəyirmi masa"dan ibarət olan bu tədbir zamanı şəhərlərdə əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması, şəhərlərdə xidmət əməliyyatları və xidmətlərin təkmilləşdirilməsi əsas hədəflərdir.

Çıxışlarda qeyd edilib ki, statistik göstəricilərə əsasən, Avropa İqtisadi Komitəsi regionu əhalisinin böyük hissəsi artıq şəhərlərdə məskunlaşıb. Bütün bunlar, öz növbəsində, şəhərdə mövcud ehtiyatların böyük təzyiqə məruz qalması ilə nəticələnir ki, bu səbəbdən yaranan çətinliklərin aradan qaldırılması istiqamətində müasir texnologiyalar ilə yanaşı, ağıllı strategiyaların tətbiqinə də ehtiyac duyulur. Hesab edilir ki, AİK tərəfindən uzun müddət ərzində aparılan fəaliyyət nəticəsində qəbul edilmiş norma, standart, konvensiya və təşəbbüslər hökumətlərə bu kimi çətinliklərin aradan qaldırılması üçün dəstək ola bilər.




Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov "İnsanların həyat keyfiyyətinin yaşxılaşdırılması" mövzusunda keçirilmiş "dəyirmi masa"da çıxış edib. O, öz çıxışında bildirib ki, Azərbaycan Respublikası 2000-2015-ci illəri əhatə edən və qlobal səviyyədə qəbul edilmiş BMT-nin Minilliyin İnkişaf Məqsədlərini uğurla yerinə yetirib, bu dövrdə Azərbaycan dünyada sürətlə inkişaf edən ölkə kimi ÜDM-in üç dəfə artmasına və yoxsulluq və işsizlik səviyyəsinin beş faizə enməsinə nail olub. Məhz bu nailiyyətlərə görə Azərbaycan beynəlxalq "Cənub-Cənub" mükafatına layiq görülüb və hazırda da BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin uğurla icrası üçün səylərini davam etdirir. Eldar Əzizov vurğulayıb ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə 2016-cı ildə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi təsis edilib və agentliyin başlıca məqsədi aşağı və orta gəlirli vətəndaşların, gənc ailələrin mənzil-məişət şəraitini yaxşılaşdırmaq və onları güzəştli şərtlərlə mənzillərlə təmin etməkdir. Bu, öz növbəsində ölkəmizdə Dayanıqlı İnkişaf Məqsədlərinin uğurlu icrasına töhfə verir və bu məsələlərin Bakı şəhərində mənzil-məişət problemlərinin həlli ilə bağlı agentliklə Bakı Şəhər İcra Hakimiyyəti arasında sıx əməkdaşlıq həyata keçirilir.

Daha sonra E.Əzizov tədbir iştirakçılarını BMT-nin Cenevrədəki ofisinin binasında təşkil edilmiş sərgidə Bakı şəhərinin stendi ilə tanış olmağa dəvət edib.

# Rusiya və Azərbaycan vergi xidmətlərinin birgə işçi qrupunun iclası keçirilib

"Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə 2024-cü ilədək Fəaliyyət Planı"nın "Büdcə-vergi sektorunun rəqəmsallaşdırılması sahəsində qarşılıqlı fəaliyyət üzrə yol xəritəsi"nə uyğun olaraq Rusiya Federasiyasının Federal Vergi Xidməti və Azərbaycan Respublikasının Vergilər Nazirliyi arasında işçi qrupu yaradılıb. Sözügedən işçi qrupunun ilk iclasının keçirilməsi məqsədilə Rusiyanın Federal Vergi Xidmətinin beynəlxalq əməkdaşlıq və valyuta nəzarəti idarəsinin rəisi Dmitri Volvaçın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdə olub.

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, səfər zamanı nümayəndə heyətinin üzvləri vergilər naziri Mikayıl Cabbarovla görüşüb. Görüşdə iki ölkənin vergi xidmətləri arasında əlaqələr, o cümlədən işçi qrupu çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib, Rusiya-Azərbaycan vergi xidmətləri arasında təcrübə mübadiləsinin genişləndirilməsi zəruriliyi vurğulanıb.

M.Cabbarov işçi qrupunun iclasının ikitərəfli əlaqələrin möhkəmlənməsi və qarşılıqlı faydalı əməkdaşlığın daha da genişlənməsi baxımından səmərəli hesab etdiyini diqqətə çatdırıb.

Sonra Vergilər Nazirliyində işçi qrupunun iclası keçirilib. İclasda vergi orqanlarının nəzarət funksiyalarının həyata keçirilməsi, vergi mübahisələrinin məhkəməyəqədər həlli, transfer qiymətəmələgəlməsinə nəzarət, vergiödəyicilərinin qeydiyyatı, o cümlədən vergiödəyicilərinə xidmət sahələrində təcrübə mübadiləsi aparılıb.

Səfər çərçivəsində Rusiya nümayəndə heyəti kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatının vahid qeydiyyat orqanı prinsipi - "bir pəncərə" sistemi ilə tanış olub.

# Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq, Azərbaycan Respublikasının prokurorluq orqanları xarici ölkələrin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan və 170-dən çox dövlətin üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə səmərəli qarşılıqlı əməkdaşlığı davam etdirir.



Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Norveçin paytaxtı Osloda Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraiyyə Komitəsinin 47-ci iclası keçirilib. Tədbirdə ölkəmizi Azərbaycan Respublikası baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi, Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü və təşkilatın vitse-prezidenti Kamran Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.

Tədbir zamanı Assosiasiyanın İcraiyyə Komitəsinə yeni üzvlərin qəbulu həyata keçirilib, dünya prokurorlarının fəaliyyətlərini təkmilləşdirmək məqsədi daşıyan bir sıra təşkilati məsələlər, həmçinin qurumun fəaliyyətinin təşkili üçün zəruri olan bir sıra hesabat və sənədlər, o cümlədən qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti ilə əlaqələri tənzimləyən normativ sənədin qəbulu, Assosiasiyanın Hərbi Prokurorlar Şəbəkəsi ilə Beynəlxalq Hərbi Hüquq Cəmiyyəti arasında Anlaşma Memorandumunun imzalanmasına dair müzakirələr aparılıb. Bundan əlavə, təşkilatın prezidentliyinə Koreya Respublikasının Busan vilayətinin baş prokuroru Çeol-Kyu Hvanqın namizədliyinin irəli sürülməsi barədə qərar qəbul olunub.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev ölkəmizdə cinayət qanunvericiliyinin dekriminallaşdırılması və liberallaşdırılması, məhkəmə-hüquq sistemində şəffaflığın təmin edilməsi istiqamətlərində Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq həyata keçirilən genişmiqyaslı islahatlar, həmçinin korrupsiyaya qarşı qətiyyətli mübarizə tədbirləri barədə iştirakçılara ətraflı məlumat verib.

İclasda çıxış edən qurumun İcraiyyə Komitəsinin və Katibliyinin rəhbər şəxsləri Azərbaycanın Assosiasiyanın işinə verdiyi önəmli töhfələri və onun fəaliyyətində göstərdiyi təşəbbüskarlıq və mühüm dəstəyini xüsusi vurğulayıb, ölkəmizlə əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər.

Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə bir sıra ölkələrin təmsilçiləri arasında ikitərəfli görüşlər keçirilib, qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunub.

İclasda İcraiyyə Komitəsinin növbəti - 48-ci iclasının və Assosiasiyanın 24-cü İllik Konfransının 2019-cu ilin sentyabrında Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilməsi qərara alınıb.

# BMT-nin təmsilçiləri Füzuli rayonunda olublar

BMT Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycan üzrə nümayəndəsi Çuido Ambroso və BMT-nin İnkişaf Proqramının Rezident nümayəndəsi Alessandro Frakasetti Füzuli rayonuna səfər ediblər. Aprelin 8-də gerçəkləşən səfər zamanı qonaqlarla Füzuli Rayon İcra Hakimiyyətində görüş olmuşdur.









Qonaqları qəbul edən Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev Ermənistan silahlı qüvvələrinin işğalçılıq siyasəti nəticəsində rayonun iqtisadiyyatına, sosial infrastrukturuna vurulan böyük zərərdən, müharibənin yaratdığı fəsadları aradan qaldırmaq üçün Azərbaycan hökumətinin gördüyü tədbirlərdən, beynəlxalq humanitar təşkilatların yardımlarından ətraflı danışmışdır. Alı Alıyev qeyd etmişdir ki, 1993-cü ilin avqustunda Füzuli rayonu Ermənistanın silahlı birləşmələri tərəfindən tamamilə işğal edilmişdir. Yaşayış məntəqələri yandırılıb xarabazara çevrilmişdir. Xalqın tələbi ilə hakimiyyətə gələn ulu öndər Heydər Əliyevin qətiyyəti, böyük sərkərdəlik məharəti sayəsində 1994-cü ilin yanvarında Füzuli rayonunun 22 yaşayış məntəqəsi işğaldan azad edilmişdir. Dövlətin qayğısı və yardımı ilə Horadiz və digər yaşayış məntəqələrinin bərpasına başlandı. Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə rayon ərazisində 2003-cü ildə 11 ədəd Qayıdış, 2007-ci ildə isə 5 ədəd Zobucuq, 2016-cı ildə isə 400 evlik qəsəbələr inşa edildi. Bütövlükdə Füzuli rayonunun yaşayış məntəqələrində respublika və beynəlxalq humanitar təşkilatlar tərəfindən tikilmiş, yaxud bərpa edilmiş evlərin statistikası belədir: rayon icra hakimiyyəti tərəfindən 238, "Dövlətqaçqınkom" tərəfindən 4.696, Ərazilərin Bərpa Agentliyi tərəfindən 1.030, ÇTZ-Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti tərəfindən 496, İRS Beynəlxalq Xilasetmə Komitəsi tərəfindən 1.038, Norveç Ali Komissarlığı tərəfindən 276, Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyəti tərəfindən 318 ev. Bütün bunlara görə Füzuli camaatının minnətdarlığı hədsizdir.

Görüş zamanı Füzuli Rayonu İcra Hakimiyyətinin başçısı Alı Alıyevlə BMT-nin təmsilçiləri Çuido Ambroso və Alessandro Frakasetti arasında maraqlı və işgüzar fikir mübadiləsi oldu. Qonaqlar məcburi köçkünlərin məşğulluğunu artırmaq, onların həyat şəraitini yaxşılaşdırmaq üçün yeni layihələr həyata keçirmək niyyətində olduqlarını bildirdilər. Rayon rəhbəri isə öz növbəsində səmərəli təkliflər irəli sürdü.

Qonaqlar Ərazilərin Minalardan təmizlənmməsi üzrə Milli Agentliyin Horadiz şəhərində yerləşən bazasında mövcud vəziyyətlə tanış oldular. Sonra isə Zobucuq, Qayıdış və fin qəsəbələrinə baş çəkib orada yaşayan məcburi köçkünlərin güzəranı ilə yaxından tanış oldular.

BMT təmsilçilərinin səfəri aprelin 9-da Ağdam rayonunda davam edəcək.

***Lazım QULİYEV, "Azərbaycan"***

# Məhkəmə-hüquq sistemi dəyişəcək

## İlham Əliyevin yeni fərmanı bu sistemin gələcək inkişafı üçün strateji prioritetləri müəyyənləşdirən "yol xəritəsi"dir

**Prezident İlham Əliyevin məhkəmə-hüquq sistemində islahatların dərinləşməsi ilə bağlı imzaladığı fərman ölkədə aparılan islahatların hansısa istiqamətlər üzrə və müəyyən mərhələ üçün deyil, davamlı, sistemli olduğunu bir daha təsdiqlədi. Bu sənəd məhkəmə-hüquq sistemində ali yüksəlişə aparacaq islahat kimi qiymətləndirilib.**

**Hüquqşünaslar, vəkillər hesab edirlər ki, zamanın tələbləri baxımından vacib, zəruri, mütərəqqi addım, eyni zamanda ədalət mühakiməsinə verilən töhfə məhkəmə-hüquq sisteminin tarixində silinməz iz qoyacaq.**





### Yeni fərman islahatlar hərəkatının tərkib hissəsidir

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc dövlət başçısının bu fərmanını 2018-ci ilin sonu, bu ilin əvvəlindən başlanılan islahatlar hərəkatının tərkib hissəsi hesab edir. Düşünür ki, bu, islahatların sosial-iqtisadi və idarəetmə sektorundan sonra ikinci hakimiyyət qolu sayılan məhkəmə sisteminə keçidi deməkdir.

Deputatın fikrincə, Azərbaycan yeni mərhələyə qədəm qoyub. Ölkə rəhbəri dördüncü prezidentlik dövrünü daha vacib proqramlar reallaşdırmaqla vətəndaşın dövlətinə inamını daha da gücləndirmək istəyir: "Fərmana diqqət yetirdikdə aparıcı bir neçə tezisi vurğulaya bilərik. İlk növbədə Prezident nəzərə alır ki, məhkəmə sistemində ötən illər ərzində hakimlərin işə qəbulu, onların sosial durumu, işlərə baxılması, elektron modellərə keçid və s. məsələlərlə bağlı addımlar atılmasına rəğmən bu sistemdə yenə də problemlər mövcuddur, zamanın hazırkı çağırışlarına uyğun olmayan hallar var və bunlar inkar edilə bilməz. Məhkəmə qərarı isə ölkənin siyasi hakimiyyətinin nüfuzuna mütləq olaraq təsir edir. Ən azı onu nəzərə almalıyıq ki, bütün qərarlar dövlət adına çıxarılır".

### Ən mühüm konseptual addım atılıb

Zahid Orucun sözlərinə görə, məhkəmə sisteminə vətəndaş inamsızlığı digər sistemlərə də təsir göstərə bilir. Çünki tərəflər arasında müqayisələndirmə, ekspertiza prosesi, digər istintaq tədbirləri və başqa proseslər sonda ölkədəki ədalət indiqatorunda mühüm parametr kimi özünü göstərir: "Fərmanın önəmli cəhəti odur ki, artıq ölkə vətəndaşlarının mühüm hakimiyyət qolu tərəfindən haqlarının qorunmasının yeni mərhələsinə qədəm qoyulur. Bundan ötrü hazırkı dövrdə ən mühüm konseptual addım atılıb. Bunun ardınca daha ciddi xarakter daşıyan sənədlər gələcək. Məhkəmə-hüquq sistemi dəyişəcək. İnsanların həyatı bu sferada daha da asanlaşacaq. Bundan ötrü qabaqcıl ölkələrin təcrübəsinin tətbiq olunması ilə bağlı çox vacib işlər görüləcək".

Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri hesab edir ki, Prezidentin tapşırığı əsasında ölkədə insan haqlarının müdafiəsi ilə məşğul olan təşkilatlar və digər qurumlar birlikdə dinləmələr keçirməli və bu prosesi ümumxalq hərəkatına çevirmək lazımdır. Çünki tarixən məhkəmə sistemi şəffaf, ədalətli işləyən ölkələr ən güclü, qüdrətli dövlətlər sayılıblar.

### Qarşıda sistemli xarakter daşıyan daha ciddi qərarlar görəcəyik

Onu da vurğulayaq ki, fərmanda mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının səmərəliliyinin artırılması, xüsusən sahibkarlıqla bağlı məsələlərin məhkəmələrdə daha sürətli və səmərəli həllinin təmin edilməsi məqsədilə mülki prosessual qanunvericiliyi kompleks şəkildə birgə təhlil edib, bu sahədə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla onun təkmilləşdirilməsi barədə təkliflərin hazırlanması üçün tapşırıqlar verilib.

Zahid Oruc deyir ki, bütün bunlar vətəndaş məmnunluğuna xidmət edəcək təkliflərdir: "İqtisadi münasibətlərlə bağlı ayrıca məhkəmə proseslərinin formalaşdırılması, bu yöndə daha geniş addımların atılması, zamanın, müddətin azalması çox müsbət addımlar olacaq. Həmçinin vəkillərin proseslərə cəlb olunma işində ödənilən vəsaitlərin birbaşa onların hesabına keçirilməsi vəkillik institutunun nüfuzunun yüksəldilməsinə xidmət edəcək".

Deputatın sözlərinə görə, bəzən məhkəmələrdə birtərəfli və ya məqsədli formada həyata keçirilən ekspertizalar, qərəzli qərarların çıxarılması halları olur. Dövlət başçısı da bütün bu halların, arzuolunmaz vəziyyətlərin aradan qaldırılması üçün ortaya böyük iradə qoyub: "Bu o deməkdir ki, qarşıda bu yöndə sistemli xarakter daşıyan addımları görəcəyik. Çox arzulayıram ki, insanlar da bu prosesdə fəal iştirak etsinlər, inamlarını göstərsinlər. Media, ictimai qurumlar, təhlil mərkəzləri məsələnin təbliğində aktiv iştirak etməlidir. Belə olan halda məhkəmə-hüquq sistemində çox ciddi dəyişiklik olacaq. Ümumilikdə məhkəmə sistemi elə işləməlidir ki, Azərbaycanda dövlətə güvənci bərqərar etsin. Ölkə rəhbəri də bundan ötrü ciddi addımlar atır. Hesab edirəm ki, Milli Məclis və həmçinin digər təsisatlar da cənab Prezidentin atdığı addımların yanındadır və bu işin həyata keçirilməsi üçün öz dəstəklərini verəcək, normativ hüquqi sənədlərin yaradılması işində aktiv iştirak edəcək, cəmiyyəti bu prosesə yaxından cəlb edəcəklər".

### Sahibkarlıq fəaliyyəti ilə əlaqədar ixtisaslaşmış məhkəmələr yaradılacaq

Prezident İlham Əliyevin sosial-iqtisadi islahatlarını çox müsbət qiymətləndirən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimli də bildirdi ki, həyata keçirilən çoxşaxəli islahatlar cəmiyyət həyatının bütün sahələrini əhatə edir. Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi ilə bağlı son fərman çox mükəmməl bir sənəd olmaqla, bu sahədə bir "yol xəritəsi" hesab edilə bilər.

Deputatın fikrincə, bu fərman statusuna görə qeyri-iqtisadi sahəni əhatə etsə də, iqtisadiyyatda da mühüm rol oynayacaq. Çünki fərmana əsasən vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi, ümumiyyətlə, sahibkarlıq fəaliyyəti ilə əlaqədar ixtisaslaşmış məhkəmələrin yaradılması nəzərdə tutulur. Bu da sahibkarlar sinfinin əməli fəaliyyətinə öz müsbət təsirini göstərəcək.

"Əgər bir sahibkar ölkədə biznes yaradıb dövlətə töhfə verirsə, bu, hər kəs üçün xeyirlidir. Amma bəzən elə hallar olur ki, sahibkara gördüyü işin müqabilində heç bir ödəmə edilmir. Belədə iş adamı nə öz fəaliyyətini genişləndirə, nə də vaxtlı-vaxtında vergisini ödəyə bilir. Ona görə də proses məhkəməyə qədər gedib çıxır. İş məhkəməyə veriləndə bəzi hallarda sahibkarın əleyhinə qərar çıxarılır. Azərbaycanın xeyrinə, qeyri-neft sektorunun inkişafına öz töhfəsini vermə qabiliyyəti olan bir sahibkar həmin məhkəmənin qərarı ilə bu sahədən uzaqlaşmış olur. Ona görə də məhkəmə sistemində ciddi islahatlar aparılmalıdır. Dövlət başçısının bu fərmanı çox mütərəqqi addımdır".

### Məhkəmənin doğru qərarları bu sistemə inamı daha da artıracaq

Əli Məsimli hesab edir ki, bu islahatlardan sonra məhkəmə sistemində tam şəffaflıq yaranacaq. Belədə insanların, sahibkarların məhkəmələrə inamı artacaq: "Hər bir vətəndaşda, iş adamında inam yaranmalıdır ki, doğru işlədiyi halda işi məhkəməyə verilsə də, məhkəmə ədalətli qərar çıxaracaq. Sahibkar öz işini qanunauyğun şəkildə həyata keçiribsə, məhkəmə də onu qorumalıdır, ədalət olmalıdır".

Əli Məsimli hesab edir ki, bu gün də məhkəmə sistemində kifayət qədər öz peşəsinə sadiq, işini çox gözəl bilən professionallar var. Ancaq bəzi hallarda çıxarılan ədalətsiz qərarlar ümumilikdə məhkəmə sisteminə inamı, etibarı azaldır.

"Azərbaycanda tam ədalətli məhkəmə sisteminin qorunması üçün Prezidentin imzaladığı fərmanda nəzərdə tutulan bəndlər sistemli şəkildə, ardıcıl formada həyata keçirilməlidir. Çünki sözün həqiqi mənasında konstitusiya qanunları əsas tutulmaqla qərar çıxaran müstəqil məhkəmə sisteminin formalaşmasına böyük ehtiyac var. Həmin sistemin inkişafı isə biznesin, iqtisadiyyatın inkişafına, haqq-ədalətlə işləyən insanların önə çıxmasına, onların daha uğurlu fəaliyyətinə öz töhfəsini verəcək".

Deputatların, ekspertlərin fikirlərindən də aydın olur ki, fərman dövlət başçısının məhkəmə hakimiyyətinə verdiyi müstəsna əhəmiyyətin növbəti təzahürü olmaqla, həyata keçirilən məhkəmə-hüquq islahatlarının mühüm tərkib hissəsidir. Fərman bu sahədə islahatların dərinləşdirilməsini, yeni mərhələdə müasir çağırışlara uyğun və sistemli davam etdirilməsini şərtləndirməklə ədliyyə və məhkəmə sisteminin gələcək inkişafı üçün strateji prioritetləri müəyyənləşdirən mühüm sənəddir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanda dayanıqlı və sabit iqtisadi inkişaf var

## Azərbaycan Sahibkarlar Konfederasiyasının təşkilatçılığı ilə "Regionların inkişafında sahibkarlığın rolu" mövzusunda III Regional Forum keçirilmişdir

6 aprel 2019-cu il tarixdə Ağstafa rayonunun Heydər Əliyev Mərkəzində "Regionların inkişafında sahibkarlığın rolu" mövzusunda III Regional Forum öz işinə başlamışdır.



Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə keçirilən forumda rayon icra başçıları və onların nümayəndələri, sahibkarlar, Azərbaycan Respublikası Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Qida Təhlükəsizliyi Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında DOST Agentliyi, Dövlət Reklam Agentliyi və Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin nümayəndələri iştirak ediblər.

Forum öz işinə başlamazdan əvvəl tədbir iştirakçıları Ağstafa rayonunda ulu öndər Heydər Əliyevin büstünün önünə əklil qoyublar.

Forumu giriş nitqi ilə açan Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev bildirib ki, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş iqtisadi inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilməsi Azərbaycan iqtisadiyyatının potensial imkanlarının daha da yüksəlməsinə şərait yaratmış, nəticədə bu gün Azərbaycanda dayanıqlı və sabit iqtisadi sistem formalaşmışdır. Ölkənin iqtisadiyyatında özəl sektorun üstünlük qazanması, neft hasilatının və gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi Prezident İlham Əliyevin iqtisadi siyasətinin ana xəttini təşkil edir.

Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının mühüm istiqamətlərindən biri də sahibkarlığın inkişafı ilə bağlıdır. Sahibkarlığa dövlət dəstəyi tədbirlərinin həyata keçirilməsi nəticəsində mühüm nailiyyətlər əldə edilmiş, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin formalaşması iri şəhərlərlə yanaşı, regionlarda da sahibkarlığın inkişafına münbit şərait yaratmışdır.

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində son 15 ildə ümumi daxili məhsul 3,2 dəfə artmışdır ki, bu da dünya miqyasında rekord göstəricidir.

Regionlarda sahibkarlığın inkişafını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti 29 yanvar 2019-cu il tarixli "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında fərman imzalamışdır.

Statistik məlumatlara əsasən, hazırda Azərbaycanda 970 min sahibkar qeydiyyatdadır və onların böyük əksəriyyəti aktiv fəaliyyətlə məşğuldur. Təkcə 2018-ci ildə Azərbaycanda 87 mindən çox sahibkar vergi orqanlarında qeydiyyata alınıb ki, bunların da 50,4 faizi məhz regionlarda çalışan sahibkarlıq subyektləridir.

Regionlarda digər sahələrlə yanaşı, aqrar-sənaye kompleksinin də sürətli inkişafına nail olunmuşdur. Nəzərə almalıyıq ki, ölkə üzrə ümumi daxili məhsulun 5,6 faizi kənd təsərrüfatında istehsal edilir. Əhalinin 47 faizi kənd yerlərində yaşayır və məşğul əhalinin 36,3 faizi kənd təsərrüfatında çalışır.

Məmməd Musayev bildirib ki, regionlarda sahibkarların sayının artması sevindirici haldır və bu proses ölkəmizin ümumi tərəqqisinə mühüm töhfələr verir: "Ona görə də hesab edirəm ki, Ağstafada keçirilən III Regional Forum məhsuldar olacaq və qarşıya qoyulan hədəflərə nail olmaq, sahibkarları düşündürən məsələlərin həlli yollarını araşdırmaq üçün yeni imkanlar açacaqdır".

Tədbirdə Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, Tovuz Rayon İcra Hakimiyyəti başçısının müavini Niftalı Qasımov çıxış ediblər.

Çıxışlardan sonra forum panellərdə işini davam etdirib. Panel sessiyalarda aidiyyəti qurumların nümayəndələri tərəfindən Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, KOB dostları və KOB evləri, kənd təsərrüfatı məhsulları və texnikasına verilən kreditləşmə qaydası, ABAD məhsullarının təqdimatı, Yaşıl Dəhliz Layihəsinin təqdimatı, qida təhlükəsizliyi haqqında qanunun ictimai müzakirəsi, Regionlarda DOST Agentliyinin rolu, Açıq Məkanda Reklam üçün Qanunvericiliyin Tələbləri və "Azexport" və "Enterprise Azerbaijan" portalları haqqında məlumatlar təqdim olunub.

Forumun işi tədbir iştirakçılarının Ağstafa rayonundakı bir neçə müəssisəyə təşkil olunan səfərləri ilə başa çatıb.

***"Azərbaycan"***

# Şəmkirdə "Dini radikalizm və ekstremizm milli təhlükəsizliyə əsas təhdidlərdən biri kimi" mövzusunda seminar keçirilib





Dövlət Sərhəd Xidmətinin (DSX) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə tədbirlər planına uyğun olaraq, aprelin 5-də Şəmkir Sərhəd Dəstəsində "Dini radikalizm və ekstremizm milli təhlükəsizliyə əsas təhdidlərdən biri kimi" mövzusunda seminar keçirilib.

Seminardan əvvəl hərbi qulluqçular və qonaqlar hərbi hissədəki Heydər Əliyev İdeoloji Mərkəzində ulu öndərin həyat və fəaliyyətini əks etdirən zəngin fotoekspozisiya ilə tanış olublar.

Dövlət himninin səsləndirilməsi ilə başlayan seminarda Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Cahangir Əlifzadənin iştirakı ilə keçirilən seminarda dini radikalizmin və ekstremizmin təbliğat metodları, onların törətdiyi fəsadlar barədə ətraflı məlumat verilib. Bəzi qüvvələrin din pərdəsi altında ölkəmizin ictimai-siyasi sabitliyinə, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı yönəldilmiş pozuculuq fəaliyyətləri, vətəndaşlarımızı xarici dini ekstremist qrupların və onların silahlı dəstələrinin tərkibinə qoşmaq cəhdləri qətiyyətlə pislənib. Belə əməlləri törətməyə cəhd edənlərə qarşı dövlət qurumları tərəfindən görülən tədbirlərin müsbət nəticələrindən danışılıb. Eyni zamanda, respublikamızda hökm sürən sabitliyi gözü götürməyən bəzi kənar qüvvələrin dəstəyi ilə din pərdəsinə bürünən cinayətkar ünsürlər tərəfindən keçən ilin iyulunda Gəncədə ictimai asayişi pozaraq vətəndaş qarşıdurması yaratmaq cəhdləri barədə ətraflı məlumat verilib.

Tədbirdə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanların mehriban və qarşılıqlı hörmət şəraitində yaşadıqları, respublikamızın tolerantlıq və multikulturalizm nümunəsinə çevrildiyi xüsusi qeyd olunub.

Seminarda dini amillərdən yararlanaraq radikallığa cəhd göstərən qüvvələrə qarşı mübarizədə hamının, xüsusən gənc nəslin sayıqlıq göstərməsinin zəruriliyi vurğulanıb.

Sonda dini radikalizmin və ekstremizmin törətdiyi fəsadlara həsr edilmiş "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

# İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin birgə məlumatı

Sahibkarların məhsullarının satışında yarana biləcək çətinliklərin aradan qaldırılması istiqamətində zəruri tədbirlər görüləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin birgə məlumatında deyilir.

"Məlum olduğu kimi, son vaxtlar daxili bazarda kartof, soğan və kələmin qiymətində ciddi artım baş verib. Bununla əlaqədar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 aprel tarixli qərarı ilə beynəlxalq təcrübəyə uyğun olaraq, həmin məhsulların istehsal mövsümü də nəzərə alınmaqla, kartofun ixracına bu il aprelin 30-dək, soğan və kələmin ixracına isə mayın 31-dək ixrac rüsumunun tətbiqinə başlanıb, habelə soğanın idxalına tətbiq olunan spesifik rüsum həmin müddətədək ləğv edilib. Atılmış bu addım daxili bazarda qiymət sabitliyinin təmin olunmasına, ölkə əhalisinin bu məhsullara olan tələbatının daha dolğun ödənilməsinə xidmət edir. Sahibkarların məhsullarının satışında yarana biləcək çətinliklərin aradan qaldırılması istiqamətində zəruri tədbirlər görüləcək", - deyə məlumatda qeyd olunur.

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Quşçu Ayrım kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Kəngərli, Acarlı, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# MOK-un vitse-prezidenti İslam Həmrəyliyi İdman Federasiyasının İcraiyyə Komitəsinin iclasında iştirak edib

Səudiyyə Ərəbistanının Ciddə şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) İcraiyyə Komitəsinin iclası keçirilib. İclasda İHİF-in və Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə də iştirak edib.



MOK-dan AZƏRTAC-a bildiriblər ki, tədbir çərçivəsində İHİF prezidentliyinə namizəd Şahzadə Abdulaziz bin Turki Al-Faisal Ç.Hüseynzadə ilə görüşərək qurumun fəaliyyəti barədə müzakirələr aparıb. Həmçinin İHİF-in baş katibi Mohammed Saleh Al-Qarnas, prezident səlahiyyətlərini icra edən Hamad Kalkaba Malboum bu qurumun fəaliyyətinə dair hesabat məruzələri ilə çıxış ediblər.

Tədbir çərçivəsində həmçinin qurumun növbədənkənar Baş Assambleyanın iclası keçiriləcək. Assambleyasının iclasında İslam Həmrəyliyi İdman Federasiyasının yeni prezidenti seçiləcək. Bundan başqa, hesabat çıxışları dinləniləcək, 2021-ci ildə İslam Həmrəyliyi Oyunlarının keçirilməsinə dair müzakirələr aparılacaq.

# İŞİMİZ, GÜZƏRANIMIZ

# İqtisadi islahatların sosial hədəfi - əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması

**Son dövrlər aparılan iqtisadi islahatların əsasən əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasına yönəldiyini heç kim dana bilməz. Buna nail olmaq üçün dövlətin həyata keçirdiyi çoxsaylı, davamlı tədbirlərdən biri mütəmadi olaraq pensiya, təqaüd və sosial müavinətlərin artırılması, həmin kateqoriyadan olan insanların inflyasiya və istehlak səbəti müəyyən edildikdən sonra pensiyalarının baza hissəsinin buna uyğun olaraq indeksləşdirilməsi, həmçinin digər sosial ödənişlərin yüksəldilməsidir.**



Aparılan sosial islahatların nəticəsinin təhlili göstərir ki, buna nail olunur. Belə ki, son dövr maaşlar 7, pensiyalar 9, minimum əməkhaqqı 6,5 dəfə artmışdır.

Dövlət başçısının təşəbbüsü ilə minimum əmək pensiyasının artırılması üçün qəbul olunan qanun da əhalinin sosial müdafiəsinin yaxşılaşmasına xidmət edir. Həmin qanuna əsasən əmək pensiyasının minimum məbləği martın 1-dən 38,5 faiz artırılaraq 116, bir sıra kateqoriyalar üzrə isə 80 manatdan 160 manata çatdırılmışdır. Minimum pensiya məbləğinin artırılması 223 min pensiyaçını, o cümlədən 140 min əlilliyə görə pensiya alan şəxsi əhatə edir. Həmin kateqoriyadan olanların 9 min nəfərinin pensiyasında 93 (yəni 75 manat), 26 min nəfərin pensiyasında 30 (37 manat), 74 min nəfərin pensiyasında 16 faiz (27 manat) artım olmuşdur. Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna cari ilin 10 ayında, yəni martdan dekabradək 41 milyon, illik isə 49 milyon manat əlavə vəsait yönəldiləcək.

Ötən il də dövlət başçısı əhalinin sosial rifahının yaxşılaşdırılması üçün bir sıra sərəncamlar imzalayıb. Ölkədə pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə imzalanan 19 fevral 2018-ci il tarixli sərəncamla orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək artırılıb.

Dövlət başçısının "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" 23 fevral 2018-ci il tarixli sərəncamı həmin ilin mart ayının 1-də qüvvəyə minib. Təkcə bu sərəncamla yaşa və əlilliyə, ailə başçısını itirməyə görə, sağlamlıq imkanları məhdud olan 18 yaşadək uşaqlara, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına verilən sosial müavinətlər 10 faiz yüksəlib. Bu, eləcə də müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına, əmək pensiyası almaq hüququ olmayan Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etdiyinə görə müharibə veteranlarına və digər kateqoriyadan olan şəxslərə şamil edilib.

*Dövlət sektorunda çalışan 450 min, özəl sektorda işləyənlərdən isə 150 min nəfərin əməkhaqlarında 30 faiz artım olub. Ancaq dövlətin əsas hədəfi qarşıdakı illərdə minimum əməkhaqqını ölkə üzrə orta aylıq əməkhaqqının 60 faizinə çatdırmaqdır.*

Prezident İlham Əliyevin "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 8 fevral 2019-cu il tarixli sərəncamına əsasən isə, cari il martın 1-dən ölkə üzrə minimum aylıq əməkhaqqı 180 manat müəyyən olunub. Sərəncamın imzalanması 600 min nəfərin minimum 180 manat aylıq əməkhaqqı almasını təmin edir. Bu, istər dövlət, istərsə də özəl sektorlarda fəaliyyət göstərən həmin kateqoriyadan olan bütün insanlara aiddir.

Mütəxəssislər qeyd edirlər ki, həmin sərəncamdan sonra dövlət sektorunda çalışan 450 min, özəl sektorda işləyənlərdən isə 150 min nəfərin əməkhaqlarında 30 faiz artım olub. Ancaq dövlətin əsas hədəfi qarşıdakı illərdə minimum əməkhaqqını ölkə üzrə orta aylıq əməkhaqqının 60 faizinə çatdırmaqdır.

Prezidentin imzaladığı 14 fevral 2019-cu il tarixli "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" fərmanında dəyişiklik edilməsi nəticəsində bu kateqoriyadan olan tələbələr martın 1-dən 210 manat təqaüd alırlar. Xatırladaq ki, əvvəl əlaçı tələbələrin təqaüdü 185 manat idi. Prezidentin "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" 14 fevral 2019-cu il tarixli sərəncamına əsasən isə, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı martın 1-dən 16 min vahid artırılıb və təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayında olan nisbəti 31 faizdən 2019/2020-ci tədris ilində 45 faizə, 2020/2021-ci tədris ilindən başlayaraq 50 faizdən az olmayaraq müəyyənləşdirilib. Göründüyü kimi, bu sənəd daha çox tələbənin təqaüd alaraq öz sosial müdafiəsini gücləndirməsinə xidmət edir.

Dövlət başçısının imzaladığı başqa bir sənəd - 14 fevral 2019-cu il tarixli "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncam isə elm və magistraturada oxuyanların bir çox kateqoriyasını əhatə edir. Bütün bunlar bir daha sübut edir ki, Prezident İlham Əliyevin "Bizim bütün fəaliyyətimizin mərkəzində Azərbaycan vətəndaşının sosial müdafiəsinin gücləndirilməsi durur" siyasəti ardıcıl tədbirlərlə özünün təsdiqini tapır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Özbəkistan telekanalında Bakı Beynəlxalq Dəniz Ticarət Limanı haqqında veriliş yayımlanıb

Özbəkistanın "Sevimli" telekanalının "Zamon" proqramında Bakı limanı haqqında danışılıb. AZƏRTAC xəbər verir ki, videomaterial bu yaxınlarda Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə bir qrup özbək jurnalistin Azərbaycana mediaturu çərçivəsində hazırlanıb.

Telekanalın müxbiri Dilnoza Saidova Bakı Beynəlxalq Dəniz Ticarət Limanı haqqında məlumat verib. Qeyd edib ki, liman 1902-ci ildə təsis edilib və o vaxtdan Xəzər dənizindəki limanların ən böyüyü və ən əhəmiyyətlisi hesab olunub.

Videomaterialda bildirilir ki, bu liman Şərq və Qərbi birləşdirən əsas nəqliyyat qovşağıdır. Özbəkistandan gələn və əks istiqamətə gedən yüklər məhz bu liman vasitəsilə ünvana çatdırılır.

Diqqətə çatdırılır ki, Bakı şəhərindən 70 kilomertlik məsafədə yerləşən liman Avrasiyada regionun əsas nəqliyyat və logistika qovşaqlarından biridir.

Vurğulanır ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci il martın 18-də imzaladığı sərəncamla Bakı limanı yenidən qurulub.

## Çikaqoda ilk İllinoys-Azərbaycan kənd təsərrüfatı forumu keçirilib

**ABŞ-Azərbaycan Ticarət Palatası və İllinoys Ticarət Palatasının birgə təşkilatçılığı ilə Çikaqo şəhərində birinci İllinoys-Azərbaycan kənd təsərrüfatı forumu keçirilib.**



Forum çərçivəsində Azərbaycanda kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən şirkətlərin təmsilçilərinin daxil olduğu və kənd təsərrüfatı naziri İnam Kərimovun başçılıq etdiyi geniştərkibli nümayəndə heyəti aprelin 3-də GSI (AGCO) şirkətinin İllinoys ştatında yerləşən taxıl və protein istehsalı sahəsinə aid avadanlıqların istehsal edildiyi müəssisələrə, ayın 5-də isə Ayova ştatının "Cinnamon Ridge Farms" fermasına, eləcə də "John Deere" şirkətinin Molin şəhərindəki mənzil-qərargahına səfər edib.

GSI dünyada taxıl siloslarını saxlamaq üçün poladdan çənlər istehsal edən ən böyük şirkətdir. İllinoys ştatının Asampşn şəhərində yerləşən GSI şirkəti dünyanın 70-dən çox ölkəsinə keyfiyyətli avadanlıq və xidmətlər təqdim edir. GSI şirkətinin rəhbərliyi Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimovun başçılıq etdiyi nümayəndə heyəti üçün təşkil edilmiş turda şirkətin istehsal həcmi, istehsal olunan avadanlığın keyfiyyəti və xüsusiyyətləri haqqında geniş məlumat verib. Nazir GSI şirkəti tərəfindən təklif edilən məhsullarla və istehsal prosesi ilə yaxından tanış olub.

Ayova ştatında yerləşən və ABŞ-ın kənd təsərrüfatı sahəsində aparıcı fermalardan sayılan "Cinnamon Ridge Farms"a səfər zamanı Azərbaycan nümayəndə heyəti fermalarda tətbiq edilən mexanizmlər və istehsalat prosesləri ilə tanış olub. Nümayəndə heyətinin üzvləri fermada işlədilən heyvandarlıq, süni mayalandırma, əkinçilik növləri ilə tanış olub, eləcə də Avropa ilə ABŞ-da tətbiq edilən müqayisəli üsullarla bağlı müzakirələr aparıblar.

"John Deere" korporasiyasının mənzil-qərargahına səfər edən nümayəndə heyəti şirkətin təklif etdiyi kənd təsərrüfatı avadanlığı və xidmətlərlə də tanış olub. Səfər çərçivəsində nazir İnam Kərimov şirkət rəhbərliyi ilə görüşüb. Azərbaycanda kənd təsərrüfatına göstərilən dövlət dəstəyi haqqında ətraflı məlumat verən İnam Kərimov ölkəmizdə kənd təsərrüfatı texnikaları bazarının liberallaşdırılması istiqamətində həyata keçirilən islahatlardan danışıb.

Görüşdə "John Deere" şirkəti ilə qarşılıqlı texniki tərəfdaşlığın genişləndirilməsi də müzakirə olunub.

# "Cənub qaz dəhlizi"ni dünya dəstəkləyir



"Cənub qaz dəhlizi" uğurla mənzil başına yaxınlaşmaqdadır. Dörd seqmentindən üçü artıq fəaliyyətdə olan bu qlobal layihənin sonuncu hissəsi TAP-ın (Transadriatik Qaz Boru Kəməri) çəkilişi davam edir və işlərin 87 faizdən çoxu yekunlaşıb. Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq "Cənub qaz dəhlizi" əhəmiyyətli bir layihə kimi dünyanın diqqət mərkəzindədir.

"Cənub qaz dəhlizi" Məşvərət Şurasının bu ilin fevral ayında Bakıda keçirilən beşinci toplantısı Azərbaycanın layihədəki liderlik rolunu bir daha nümayiş etdirdi. Azərbaycanın yaratdığı mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq sayəsində gerçəkləşən bu layihəyə dünyanın bir çox ölkələri, mötəbər maliyyə qurumları öz dəstəyini göstərir.

Məşvərət Şurası toplantısının iştirakçıları Prezident İlham Əliyevlə söhbətlərində, eləcə də iclas və digər görüşlərdə bu barədə öz fikirlərini söylədilər. Məsələn, ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Sandra Oudkirk qeyd etdi ki, 2018-ci ildə "Cənub qaz dəhlizi" layihəsinin uğurlu icrası istiqamətində mühüm nailiyyətlər əldə olunub. ABŞ bərpa olunan və alternativ enerji, eləcə də digər sahələrdə Azərbaycanla əməkdaşlığın davam etdirilməsində maraqlıdır.

Yeri gəlmişkən, ABŞ-ın Enerji İnformasiya Administrasiyasının (EİA) yaydığı məqalədə də "Cənub qaz dəhlizi" mövzusuna toxunulur: "Azərbaycan Avropa bazarında mühüm xam neft və təbii qaz tədarükçüsü hesab olunur. Aİ-yə üzv ölkələrin rəhbərləri Azərbaycanın "Şahdəniz" təbii qaz yatağından çıxarılan qazın Cənubi Avropaya nəqlini qitənin təbii qaz tədarükü mənbələrinin şaxələndirilməsi kimi strateji məqsəd istiqamətində atılmış mühüm addım hesab edirlər. Azərbaycanın təklif etdiyi qaz həcmləri Cənubi Avropada tələbatın ödənilməsi üçün potensial tədarük pozuntularını azaltmağa kömək edəcək".

Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudak Prezident İlham Əliyevlə söhbətində "Cənub qaz dəhlizi" layihəsinin uğurlu icrasında Məşvərət Şurasının toplantılarının önəmini vurğuladı. O, Avropa İttifaqının əsas maliyyə strukturu olan bu bankın "Cənub qaz dəhlizi" layihəsinə maliyyə dəstəyi göstərməsinin əhəmiyyətini qeyd etdi. Regionda Azərbaycanın iştirakı ilə həyata keçirilən irimiqyaslı nəqliyyat layihələrinə toxunan Vazil Hudak Avropa İnvestisiya Bankının bu kimi nəqliyyat və digər layihələrin də maliyyələşdirilməsində maraqlı olduğunu bildirdi.

Layihənin müvəffəqiyyətlə başa çatmasında rolu olan maliyyə qurumlarından biri Dünya Bankıdır. Bu qurum "Cənub qaz dəhlizi" layihəsinə və Azərbaycanın reallaşdırdığı digər layihələrə davamlı dəstək verir. Bu bankla Azərbaycanın iş birliyi uzunmüddətli və məhsuldardır. "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı kimi vacib tədbirdə Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonun iştirak etməsi də bunu təsdiqləyir. Təsadüfi deyil ki, Davosda Prezident İlham Əliyev Dünya Bankının baş icraçı direktoru xanım Kristallina Georgiyeva ilə gələcək əməkdaşlıq haqqında geniş müzakirələr aparıblar.

Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Fatih Dönməz də "Cənub qaz dəhlizi"nin əhəmiyyətini xüsusi qeyd edib və Türkiyənin bu layihənin ilk mərhələsindən Azərbaycanın yanında olduğunu vurğulayıb. O da layihənin icrasının uğurla davam etdirildiyini bildirib.

Beşinci toplantıda çıxış edən Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı, Məşvərət Şurasının fəaliyyətdə olan həmsədri Günter Ottinger demişdir: "Azərbaycan qazı TANAP vasitəsilə artıq buradan Türkiyəyə nəql edilir. Biz Azərbaycan qazının yaxın gələcəkdə, - ümidvarıq ki, gələn il, - Avropa İttifaqına çatmasını səbirsizliklə gözləyirik. Avropa İttifaqı "Cənub qaz dəhlizi" layihəsinin mümkün qədər tez tamamlanması üçün əlindən gələni edəcək. Bu dəhliz strateji əhəmiyyətə malikdir, çünki o, təkcə təchizat marşrutlarının deyil, həm də təchizat mənbələrinin şaxələndirilməsinə imkan verəcək. "Cənub qaz dəhlizi" təkcə Avropanın enerji şaxələndirilməsi üçün xüsusi əhəmiyyət kəsb etmir. O, həm də dəhliz boyunca yerləşən ölkələrdə və onların hüdudlarından kənarda dinamik proseslərə start verib".

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz da bu günlər jurnalistlər üçün keçirdiyi mətbuat konfransında "Cənub qaz dəhlizi"nin dünyada hazırda həyata keçirilən ən böyük layihələrdən olduğunu bir daha vurğulamışdır. Layihənin dörd seqmentindən ikisinə əməliyyatçılıq edən, ikisində isə sanballı iştirak payı olan şirkətin səlahiyyətlisi xatırlatmışdır ki, Azərbaycan qazı Avropaya, nəzərdə tutulduğu kimi, gələn il çatdırılacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Keçən ay DGK büdcə daxilolmalarını 24 faiz artırıb

**Ötən ay Dövlət Gömrük Komitəsinin (DGK) xətti ilə dövlət büdcəsinə 348 391,7 min manat məbləğində vergi və rüsum daxil olub ki, bu da 2018-ci ilin müvafiq ayı ilə müqayisədə 23,9 faiz çoxdur.**

DGK-nın yaydığı məlumata görə, hesabat ayında dövlət büdcəsinə daxil olan gömrük rüsumlarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 4 246,3 min manat və yaxud 5,7 faiz artaraq 78 669,9 min manat olub.

ƏDV üzrə daxilolmaların həcmi 218 165,1 manat təşkil edib ki, bu da 2018-ci ilin mart ayı ilə müqayisədə 28 409,4 min manat və ya 15 faiz çoxdur. Aksizlər üzrə büdcə daxilolmaları martda 48 162,3 min manat təşkil edib, bu da ötən ilin mart ayı ilə müqayisədə 3,4 dəfə artıqdır.

Bundan başqa, martda yol vergisi üzrə daxilolmalar 3 394,4 min manat olub. Bu isə ötən ilin analoji dövründəki nəticəni 20,4 faiz (574,9 min manat) üstələyib.

# *Əsrlərdən ərməğan*



*Foto Ağəli MƏMMƏDOVUNDUR*

*Elmin, texnikanın, informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə yeni-yeni peşə, sənət növləri meydana gəlir. Bununla yanaşı, qədim milli sənət növləri də yaşamaqdadır. Həm də bu sənət növləri ayrı-ayrılıqda hər bir bölgənin ənənələrini, məişətini, xarakterik xüsusiyyətlərini əks etdirir. Gənclər milli sənət növlərinə marağı ata-babalarından ərməğan alıblar. Elə peşəkarlığı, sənətin sirlərini də onlardan öyrəniblər. Odur ki, sərbəst fəaliyyət göstərərək qədim ənənələri məhəbbət və uğurla davam etdirirlər.*

# REGİONLAR



Son illər respublikamızda iqtisadiyyatın sürətli inkişafı digər sahələrdə olduğu kimi, təhsil sistemində də köklü dəyişikliklərə səbəb olmuşdur. Təsadüfi deyil ki, təhsili Azərbaycanın dinamik inkişafının əsas amillərindən biri hesab edən Prezident İlham Əliyev ölkə rəhbəri seçildiyi gündən bu vacib sahəni dövlət siyasətinin əsas prioritetlərindən biri kimi daim diqqət mərkəzində saxlamışdır.



## Gəncə təhsilinin uğurları

### Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu nailiyyətdə böyük xidmətləri olub





Ölkəmizin işıqlı gələcəyini təhsilin inkişafında görən dövlət başçısının diqqət və qayğısı sayəsində bu istiqamətdə çoxlu sayda işlər həyata keçirilmişdir ki, bunun da nəticəsində Azərbaycan təhsil sistemi dünya təhsil sisteminə inteqrasiya etmişdir. Təkcə onu demək kifayətdir ki, respublikada mövcud olan məktəblərin 80 faizi yenilənmiş, şagirdlərin ən müasir məktəblərdə təhsil almaları üçün geniş imkanlar yaradılmışdır.

Azərbaycan təhsilinin inkişafında "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı xüsusi əhəmiyyət daşıyır. Yaradıcısı və müəllifi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva olan bu proqram çərçivəsində həyata keçirilən işləri bu gün saymaqla bitməz. Bu uğurlar Gəncənin timsalında aydın görünür. Qədim Nizami yurduna hər səfərində Gəncə təhsilinə yeni-yeni töhfələr verən ölkənin birinci xanımı ümumtəhsil məktəblərində olur, təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşdırılması məqsədilə məsləhət və təkliflərini verir. İftixar hissi ilə qeyd etmək lazımdır ki, son 15 ildə dövlət başçısı İlham Əliyevlə Mehriban xanım Əliyevanın Gəncəyə birgə səfərlərindən sonra şəhərdə 34 tam orta məktəb əsaslı şəkildə təmir edilmiş, 4 məktəbdə əlavə korpuslar tikilmişdir. Uşaq-Gənclər İnkişaf Mərkəzi və Gəncə Şəhər Təhsil İdarəsi üçün yeni inzibati binalar inşa edilmişdir.

2014-cü il oktyabr ayının 18-də Prezident İlham Əliyevin və ölkənin birinci xanımı Mehriban Əliyevanın Gəncə şəhərinə növbəti səfərləri zamanı 1960 şagirdlik 4 saylı tam orta məktəbin, 2016-cı il fevralın 17-də 2200 şagirdlik Mir Cəlal Paşayev adına 39 saylı tam orta məktəbin açılışlarında iştirak etmələri bu gün də şəhərin təhsil işçilərinin qəlbində ən xoş anlar kimi yaşayır.

Cari ilin fevral ayının 14-ü də Gəncənin pedaqoji kollektivləri üçün unudulmaz oldu. Həmin gün Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncəyə səfərləri çərçivəsində bir neçə orta məktəbdə oldular. 18 saylı tam orta məktəbdə keçirilən görüşdə məktəbin direktoru Mətanət Rzayeva bu təhsil ocağında sonuncu dəfə 1988-ci ildə cari təmir işləri aparıldığını və hazırda əsaslı şəkildə yenidənqurmaya ehtiyacı olduğunu bildirdi. Qeyd olundu ki, 1965-ci ildən istismarda olan məktəbdə tədris Azərbaycan və rus bölmələrində aparılır. 39 sinifdən 28-i Azərbaycan, 11-i isə rus bölməsidir. 640 yerlik məktəbdə hazırda 795 şagird təhsil alır. Keçən il məktəbi bitirən 61 məzundan 20-si müxtəlif ali məktəblərə daxil olub. Qəbul imtahanlarında məktəb üzrə 4 nəfər 600-dən, 5 nəfər isə 500-dən yuxarı bal toplayıb.

Məktəbin müasir tələblərə cavab verməməsinə baxmayaraq, qazanılan uğurlardan razı qalan ölkənin birinci xanımı kollektiv qarşısında dedi: "Sizə uğurlar arzulayıram. Gələn dəfə sizinlə yeni məktəbdə görüşəcəyik. Sizin üçün burada ən yaxşı şərait yaradılacaq. Əsas odur ki, siz yaxşı oxuyun, bilikli, güclü, vətənpərvər olun".

Məktəbə gəldiklərinə görə müəllim və şagirdlər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya minnətdarlıqlarını bildirdilər.

Həmin gün Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncədəki uşaq evinə də baş çəkdilər. Qeyd edək ki, müəssisə 1997-ci ildən fəaliyyət göstərir və 2012-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir olunub. İkimərtəbəli binada 4 yataq otağı, psixoloq, həkim, kompüter, əmək və istirahət otaqları, mətbəx və yeməkxana, böyük idman zalı var. 80 nəfərlik uşaq evində hazırda 40-ı oğlan, 28-i qız olmaqla, ümumilikdə 68 uşaq tərbiyə alır.

Birinci vitse-prezident Gəncə məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də qayğısını əsirgəmir. Gəncəyə hər səfərində orta məktəblərə baş çəkən ölkənin birinci xanımı ona edilən bütün xahişlərin yerinə yetirilməsi üçün göstərişlər verir. Yaradılan şərait təhsil infrastrukturunun yenilənməsinə, təlim-tərbiyənin və təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına, pedaqoji kollektivlərdə işgüzarlığın yüksəlməsinə müstəsna və əhəmiyyətli dərəcədə təsir edir. Bu qayğı ümumi orta və tam orta təhsil səviyyələri üzrə buraxılış imtahanlarında, eləcə də ali və orta təhsil ixtisas müəssisələrinə qəbulda özünü göstərir.

Son illər Gəncədə təhsildə sürətli inkişafa nail olmaq üçün kifayət qədər geniş proqramlar icra edilir. Bunlardan biri də təmayüllü siniflərin təşkilidir. Bu məqsədlə 2015-2016-cı tədris ilindən başlayaraq indiyədək 10 məktəbdə təmayüllü siniflər yaradılmışdır. 2018-2019-cu tədris ilində isə 22 məktəb üzrə 34 təmayüllü sinif təşkil edilmişdir. Sevindirici haldır ki, keçən tədris ilində təmayüllü sinifləri bitirən məzunların 81 faizi yüksək göstəricilərlə ali məktəblərə daxil olmuşdur.

"Xüsusi istedadlar" siniflərinin yaradılması da müsbət nəticələr verir. İsrafil Məmmədov adına 27 nömrəli fizika-riyaziyyat-informatika təmayüllü liseydə 5-ci sinifdən başlayaraq yaradılmış "Xüsusi istedadlar" sinfinin ilk buraxılışı olan 17 məzunun hamısı ali məktəblərə daxil olmuşdur. Onlardan 7 nəfəri 600-dən yuxarı, 10 nəfəri isə 500-dən yuxarı bal toplamışdır. Ümumiyyətlə, Dövlət İmtahan Mərkəzinin statistik məlumatına əsasən, Gəncənin keçən tədris ilinin məzunlarından 1991 nəfər ali məktəblərə qəbul üçün sənəd vermiş, onlardan 1048 nəfər tələbə adını qazanmış, 61 nəfər isə xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul olunmuşdur. 20-dən artıq məzun İngiltərə, Polşa, Türkiyə, Rusiya, Sinqapur və Cənubi Koreya universitetlərində təhsil almaq hüququ qazanmışdır ki, bu da dövlət başçısının, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Gəncə təhsilinə diqqət və qayğısının bariz nümunəsidir.

Gəncə məktəbliləri ümumşəhər və respublika üzrə keçirilən müsabiqə və olimpiadalarda da öz biliklərini yüksək səviyyədə nümayiş etdirirlər. Məhz bunun nəticəsidir ki, son illər Gəncə məktəbliləri respublika üzrə keçirilən müsabiqə və olimpiadalarda 28 qızıl, 31 gümüş, 36 bürünc medal qazanmışlar.

Təhsilin keyfiyyətini yüksəltmək, dərs deyən müəllimlərin məsuliyyətini artırmaq məqsədilə şəhər təhsil idarəsində təşkilat komitəsi və işçi qrupu yaradılmışdır. Təkilat komitəsi videoçəkiliş aparmaqla müəllimlərin mühazirələrini dinləmiş və qiymətləndirmə aparmışdır. Dinləmələr zamanı yüksək dəyərləndirilmiş 5 mühazirə respublika mərhələsinə təqdim olunmuşdur. Bu mühazirələrin 3-ü respublika mərhələsində II və IV yerləri tutmuşdur.

Gəncə Şəhər Təhsil İdarəsinin rəisi Zakir Hüseynovla söhbət zamanı dedi ki, digər sahələrdə olduğu kimi, son illər Gəncə təhsil sistemində də bir çox uğurlara imza atılıb. Söz yox ki, bu uğurların mərkəzində möhtərəm Prezidentin apardığı məqsədyönlü siyasət dayanır. Yeni məktəb və məktəbəqədər uşaq tərbiyə müəssisələrinin tikilməsinin, olanların əsaslı təmir edilməsinin təşəbbüskarı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da təhsilin inkişafına töhfəsi böyükdür.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## İslahatlar yeni uğurlara yol açır

Dövlət başçısının imzaladığı fərman və sərəncamlar regionlarımızın inkişaf strategiyasını müəyyənləşdirməklə yanaşı, böyük layihələrin icrasına da geniş imkanlar açmışdır. Bu layihələrin həyata keçirilməsi nəticəsində bölgələrimizin siması başdan-başa dəyişmiş, bir çox problemlər həll edilmişdir. Qazanılan uğurlar insanların rifah halını yüksəltmişdir.





Bu inkişafı Gədəbəyin timsalında da görmək olar. Son illər rayonda sağlam biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi, kiçik və orta sahibkarlığın inkişafı sayəsində yeni istehsal və emal müəssisələri yaradılmış, məşğulluğun səviyyəsi yüksəlmişdir. Təkcə keçən il fəaliyyətə başlamış yeni müəssisələr hesabına 1313 iş yeri açılmışdır ki, bunun da 665-i daimidir. Məsələn, Gədəbəy şəhərində illik istehsal gücü 5 min ton olan çörəkbişirmə müəssisəsi fəaliyyətə başlamış və burada 7 nəfər işlə təmin edilmişdir. Maarif kəndində "Kiçik Qafqaz" MMC-yə məxsus illik istehsal gücü 1 milyon dekalitr, Miskinli kəndində illik istehsal gücü 500 min dekalitr olan mineral sular müəssisələri istifadəyə verilmiş, bu istehsal sahələrində 72 yeni iş yeri açılmışdır.

Ümumiyyətlə, əhalinin məşğulluğunun təmin ediməsi rayon rəhbərliyinin daim diqqət göstərdiyi məsələlərdəndir. Keçən il Gədəbəy Rayon Məşğulluq Mərkəzinə 1218 nəfər müraciət etmiş, onların 529 nəfəri müxtəlif idarə, müəssisə və təşkilatlarda işlə təmin olunmuşdur. Bundan başqa, mərkəzdə qeydiyyatda olan işaxtaran vətəndaşlar üçmərhələli təlimlərdə iştirak etmiş, onların 96-sı təlimləri uğurla başa vurmuş və il ərzində 49-u aktivlərlə təmin edilmişdir.

Rayonda investisiya yatırmaq üçün iş adamlarına geniş imkanlar yaradılmışdır. Bu məqsədlə keçən ilin noyabr ayında sahibkarlarla görüş keçirilmiş, onların arzu və təklifləri dinlənilmişdir. Keçirilən görüşün nəticəsi olaraq cari il investisiya yatırmaq üçün iş adamlarına 5 milyon manat dəyərində layihələr təqdim edilmişdir.



Rayon iqtisadiyyatının əsasını əkinçilik və heyvandarlıq təşkil etdiyi üçün bu sahələrin inkişafına daim diqqət göstərilir. Keçən il rayonda 126,3 min ton kartof, 4,3 min ton buğda, 188 ton arpa, 43 ton qarğıdalı, 3,3 min ton kələm, 252 ton yerkökü və 408 ton digər tərəvəz məhsulları yetişdirilmişdir ki, bu da əvvəlki illə müqayisədə xeyli çoxdur.

Heyvandarlıq məhsullarının istehsalında da xeyli irəliləyiş var. Belə ki, qaramalın sayı 48,8 min, davarın sayı 243,4 minə çatdırılmış, ət, süd istehsalı artmışdır.

Gədəbəydə arıçılıq da inkişaf edir. Hazırda rayonda 3 mindən çox arı ailəsi bəslənilir. Arıçılara 90,7 min manat subsidiya ödənilmişdir. İstehsal olunan arı məhsullarının bir hissəsi rayonda, bir hissəsi Bakıda təşkil olunmuş yarmarkada satılmışdır.

Onu da qeyd edək ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Gədəbəy rayonunun inkişafını təmin edən 17 tədbirin hamısı uğurla yerinə yetirilmişdir. Həmin tədbirlərə uyğun olaraq rayonda abadlıq və yenidənqurma işləri uğurla həyata keçirilmişdir. Gədəbəy şəhərinin abadlaşdırılması işləri çərçivəsində yol kənarlarına səkilər çəkilmiş, istinad divarları mozaika daşları ilə üzlənmiş, küçələri işıqlandırmaq üçün yeni elektrik dayaqları quraşdırılmışdır. Şəhərin bir çox küçələrində suötürücü kanallar çəkilmiş, kommunal binalar təmir edilmişdir. Hazırda şəhərdə ticarət obyektləri yeni dizaynla təmir edilir, ərazidə yenidənqurma işləri görülür. Polis əməkdaşları üçün inşa edilən ikimərtəbəli 10 mənzilli yaşayış binasında son tamamlama işləri aparılır.

Gədəbəy dağlıq ərazidə yerləşdiyi üçün burada qış sərt keçir. Odur ki, rayonun yaşayış məntəqələrinin mavi yanacaqla təminat məsələsinə ciddi fikir verilir. Təkcə keçən il 22 yaşayış məntəqəsində 2103 abonent təbii yanacaqla təmin edilmişdir. Bu sahədə ən çox diqqət yetirilən ərazi düşmənlə həmsərhəd olan Şınıx bölgəsidir. Son vaxtlar bu bölgədə təbii qazla təminat işində müsbət irəliləyişlərə nail olunmuşdur.

Rayonun yol infrastrukturunda da başlanan yenidənqurma işləri davam edir. 12 min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən və uzunluğu 29 kilometr olan Slavyanka-Qoşabulaq-Pərizamanlı avtomobil yolunun tikintisi başa çatmışdır. Bununla yanaşı, Qarıkənd-Miskinli-Qızıltorpaq-Qonaqlı və Qarıkənd-Miskinli-Çalburun avtomobil yollarında təmir işləri aparılmış, Gərgər-Şəkərbəy avtomobil yolu üzərində sel suları nəticəsində sıradan çıxmış suötürücü borular bərpa edilmişdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Bu il Tovuzda kartof bol olacaq

Tovuzda kartof əkininə ötən illə müqayisədə bir ay tez başlanılıb. Rayon Aqrar İnkişaf Mərkəzinin direktoru Rəhman Qasımovun dediyinə görə, bunun səbəbi quraqlıqla əlaqədardır. Rayonda əsasən təbii suvarma mənbələrindən olan Zəyəm çayında yaz və yay aylarında suyun az olacağı ehtimalı fermerləri bir qədər tələsməyə məcbur edib.









Ötən illərdən fərqli olaraq, builki əkinlərin 90 faizi kənd təsərrüfatı texnikasının köməyi ilə aparılmışdır. Kartofsəpən texnikanın təxminən 100 nəfərin bir həftəyə görə biləcəyi işi bir gündə yerinə yetirməsini nəzərə alsaq, bunun nə qədər sərfəli olduğunu yəqin etmək çətin deyil. Texnika hesabına əl əməyinin azalması məhsulun maya dəyərini də aşağı salır. Bundan başqa, fermerlərin fikrincə, texnika ilə becərilən sahələrdə məhsuldarlıq da yüksək olur. Hazırda rayonda çox sayda iri fermer təsərrüfatları var. Onların hamısı kartofun əkilməsindən tutmuş çıxarılmasınadək bütün işləri texnika ilə həyata keçirir.

Son illər ölkədə kartof istehsalına görə öndə gedən tovuzlular bu il də birinciliyi əldə saxlamaq əzmindədirlər. Qeyd edək ki, keçən il rayonda 6628 hektar sahədə kartof əkilmiş, 144 min 412 ton məhsul istehsal edilmişdir. Orta hesabla hər hektardan 217,9 sentner məhsul götürülmüşdür. İstixanalarda yetişdirilmiş 2542 ton məhsulun satışından 3 milyon 813 min manat gəlir götürən fermerlər cari ildə bu göstəricini artırmaq istəyirlər. Əkin sahələrini bir qədər də genişləndirən fermerlər sahələrdə yüksək məhsuldarlığı ilə seçilən "Kemirov", "Sevinc", "Telman", "Əmiri" və "Nevski" kartof sortları əkmişlər.

Rayonda ən çox kartof əkən kəndlərdən biri Əyyubludur. Kənddə 3 mindən çox təsərrüfat var və əhalinin əksəri əsasən kartof əkir. Hər il kartofçuluqdan xeyli gəlir götürən sakinlər ildən-ilə əkin sahələrini artırırlar. Rayon icra hakimiyyəti başçısının Əyyublu kəndi üzrə nümayəndəsi Fariz Qocayev dedi ki, 2 min hektar əkin sahəsinin 1000 hektarında kartof əkilir. Kartofçuluq üçün əlverişli olan əkin sahələrində hər il 25 sentnerdən çox məhsul götürülür. İstehsal olunan kartofun bir hissəsi çıxarılan zaman satılsa da, yarısı kənddəki soyuducu anbarda saxlanılır. Kənddə ən çox kartof əkən fermerlər - Elbrus Abdullayev, Şayəddin Əliyev, Namiq Musayev, Süleyman Alıyev, Məhəmməd Əliyev və başqaları bu il daha çox məhsul yetişdirmək üçün əllərindən gələni əsirgəmirlər.

Biz kənddə olarkən kartof əkini davam edirdi. İcra nümayəndəsi dedi ki, əkin aprel ayının sonunadək başa çatdırılacaq. Ancaq elə fermerlər var ki, əkini qurtarmışlar. Onlardan biri - Məhəmməd Əliyevlə görüşdük. Məhəmməd kişi dedi ki, bu, onun ata-baba peşəsidir. Özünün 1 hektar pay torpağı var, 2 hektar da icarəyə götürüb. Hər il əkin sahələrindən 80 tona yaxın məhsul götürür. Mövsüm ərzində 30 nəfərədək işçi qüvvəsi toplayır. Onların əməkhaqqını günün sonunda ödəyir. Bu il əkin sahəsini bir qədər də genişləndirərək 6 hektara çatdırmaq arzusundadır. Bir neçə həmkəndlisi ilə müqavilə bağlayıb. Bir neçə günə həmin əkin sahələrində də kartof əkinini başa çatdıracaq.

Məhəmməd Əliyev onu da dedi ki, kartofçuluq hər il ona xeyli gəlir gətirir. İki övlad sahibi olan ağsaqqal vurğuladı ki, kartof istehsalından götürdüyü qazancla yaxşı ev-eşik tikdirib. Övladının birinin toyunu edib. Digərinə payızda toy etməyi planlaşdırıb.

Kənddə ən çox kartof istehsalı ilə məşğul olanlardan biri də Fərrux Qurbanovdur. Hər il yetişdirdiyi kartofun satışından əldə etdiyi qazanc onun dolanışığını artıqlaması ilə təmin edir. Fermer deyir ki, keçən il bir hektar sahədən 250 sentner məhsul götürüb. Əldə etdiyi qazanc pis olmayıb. Odur ki, bu il kartof sahəsini genişləndirərək 1,5 hektara çatdırıb. Əldə etdiyi qazancın bir hissəsini icarəyə götürdüyü texnikanın işlədilməsinə sərf edir. Buna görə bu ilki qazancla yeni texnika almaq fikrindədir.

Fermer dövlətin dəstəyinə güvəndiyini də vurğuladı. Dedi ki, dövlət başçısı sağ olsun. Fermerlərə göstərdiyi diqqət və qayğı onlara daha çox məhsul istehsalı üçün stimul verir.

Qeyd edək ki, Tovuzun dağ kəndlərində kartof əkininə bir qədər gec başlanılır. Bunun əsas səbəbi yaz mövsümündə həmin ərazilərdə havaların bir qədər soyuq keçməsidir. Əsasən heyvandarlıq və əkinçiliklə məşğul olan sakinlər hər il kartof istehsalından da xeyli gəlir götürürlər. Belə kəndlərdən biri Böyük Qışlaq kəndidir. 2,9 min nəfər əhalisi, 580 təsərrüfatı olan kənd rayon mərkəzindən 50 kilometr məsafədədir. Kənddə əkin sahələri yağış suyu ilə suvarılır, sahələrə heç bir dərman və gübrənin verilməsinə ehtiyac olmur. Buna görə də həmin ərazidə yetişdirilən kartofun satış qiyməti digər bölgələrdə yetişdiriləndən baha olur.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

# Azərbaycanın ən böyük tibb müəssisəsi

## Bakı Sağlamlıq Mərkəzi son zamanlar fəaliyyətini daha da genişləndirir



Son illər respublikamızın səhiyyə sahəsi yeni inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə ən müasir tələblərə cavab verən səhiyyə infrastrukturunun yaradılması, xəstəxanaların tikilməsi, mövcud tibb ocaqlarının yenidən qurulması müasir avadanlıqlarla təmini genişlənib. Tibb müəssisələri şəbəkəsinin və strukturunun təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən islahatlar və layihələr nəticəsində əhalinin sağlamlığının qorunmasında və xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında mühüm uğurlar əldə edilib. Bu məsələdə səhiyyənin prioritet sahələri üzrə qəbul olunan 9 Dövlət proqramı mühüm əhəmiyyət daşıyır.




Nəinki tibbin ən son model texnika və texnologiyalarının tətbiqi, həm də xidmət mədəniyyətinin yüksək səviyyəsi ilə diqqəti cəlb edən Bakı Sağlamlıq Mərkəzi haqqında isə ayrıca söz açmağa dəyər. Buna görə də yolumuzu ölkə əhalisinin daha çox üz tutduğu Bakı Sağlamlıq Mərkəzindən saldıq.

Xatırladaq ki, Prezident İlham Əliyevin 2010-cu il 6 avqust tarixli sərəncamı əsasında inşa edilən, 2014-cü il yanvar ayının 7-də isə açılan Bakı Sağlamlıq Mərkəzi paytaxtın ən böyük tibb müəssisəsidir. 50 min kvadratmetr sahəsi olan mərkəz 550 çarpayılıqdır və ən müasir avadanlıqla təchiz edilib. Burada tibbin son elmi-texniki yenilikləri tətbiq olunur.

### Belə mərkəzlərin yaradılması sosial sahəyə diqqətdir

Prezident İlham Əliyev Bakı Sağlamlıq Mərkəzinin açılışında son illər səhiyyədə aparılan islahatlar və bunun konkret nəticələrinin ümumxalq əhəmiyyətini xüsusi vurğulayaraq bildirmişdir ki, bu, müstəqillik dövründə tikilmiş ən böyük tibb müəssisəsidir: "...Bu mərkəzin tikintisi əlamətdar hadisədir. Son illərdə Azərbaycanda səhiyyə sahəsinin inkişafı ilə bağlı böyük işlər görülmüşdür... Belə mərkəzlərin yaradılması Azərbaycanda sosial sahəyə göstərilən diqqətin əlamətidir. Azərbaycanda səhiyyə sahəsində aparılan islahatlar statistik göstəricilərdə də özünü əks etdirir... Əminəm ki, bu mərkəzdə vətəndaşlara yüksək xidmət göstəriləcəkdir. Əlbəttə ki, bu, həkimlər üçün də yeni iş yerlərinin açılması deməkdir. Əminəm ki, burada işləmək də hər bir həkim üçün xoş olacaqdır. Çünki burada olan şərait dünyanın ən yüksək standartlarına uyğundur. Bu gün Azərbaycan səhiyyə sahəsində, xüsusilə, avadanlıq, təchizat və tikinti işlərində öz standartlarını da təqdim edir".

Bakı Sağlamlıq Mərkəzinin direktor müavini və baş həkimi, tibb elmləri üzrə fəlsəfə doktoru Elxan Hacıyevlə söhbətimiz də tibbin bütün sahələri üzrə kompleks müayinə və müalicələrin aparılması üçün bu müəssisədə yaradılan şəraitlə bağlı oldu. Diqqətçəkən məqamlardan biri odur ki, ən müasir texnika və avadanlığın bir çoxu ölkəmizin tibb sistemində ilk dəfə burada tətbiq edilir: "...Ölkəmizdə səhiyyəni dövlət siyasətinin prioritet istiqamətlərinə daxil edən Prezident İlham Əliyev insanların sağlamlığını cəmiyyətin sərvəti hesab edir. Səhiyyəyə ayrılan büdcə vəsaiti ildən-ilə artırılır, bu da ölkədə aparıcı texnologiyalarla, müasir tibbi avadanlıqlarla təchiz olunan yeni tibb mərkəzlərinin yaradılmasına imkan verir. İnsanlara səhiyyə xidmətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən biri də "Sağlam həyat uğrunda" devizi altında keçirilən sağlamlıq aylarıdır. Bütün ölkəni əhatə edən bu cür tədbirlər birbaşa əhalinin sağlamlığının qorunmasına yönəlib".

### İnsanların şəfa üçün daha çox üz tutduğu ünvan

Baş həkim qeyd etdi ki, mərkəzdə müasir maqnit-rezonans aparatı, LED sistemli cərrahi işıqlandırıcılar, mərkəzləşdirilmiş sterilləşdirmə sistemi xidmətin səviyyəsini yüksəldir: "Bundan əlavə, kompüter tomoqrafiyası, rəqəmsal rentgen, ultrasəs aparatları və digər müasir tibbi cihazlar xəstələrin müalicəsində mühüm rol oynayır. Cərrahi asma panellər, masalar, kameralar və rentgen aparatları, həmçinin barokamera, mərkəzi oksigen sistemi, yeni doğulmuşlar üçün küvezlər və reanimasiya otaqları mərkəzin əhəmiyyətini daha da artırır. Əhalinin sağlamlığının təmin olunması xüsusi həssaslığı ilə seçilən elə bir sosial amildir ki, bu sahədə mövcud problemlərin tam aradan qaldırılması üçün bəzən tək dövlət tərəfindən görülən tədbirlər yetərli olmur. Cəmiyyətin ən müxtəlif təbəqələrinə mənsub insanların şəfa tapmaq üçün əlahiddə köməyə ehtiyacı yaranır. Bununla bağlı Heydər Əliyev Fondunun həyata keçirdiyi səhiyyə layihələri səhhətindəki problemlər üzündən əziyyət çəkən minlərlə insanı yenidən sağlam həyata qaytarmışdır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ölkə səhiyyəsindəki problemləri daha yaxşı görməklə ictimaiyyəti onların həlli istiqamətində səfərbər etməyə, ələlxüsus tibbi yardıma böyük ehtiyacı olan aztəminatlı vətəndaşlara yüksək diqqət və həssaslıqla yanaşmağa çalışır".

Bu mərkəzdə tibbin bütün sahələri üzrə kompleks müayinə və müalicələrin aparılması üçün hər cür şərait yaradılıb. 3 korpusdan ibarət mərkəzdə 330 çarpayı yerlik xəstəxana, 3 anjo laboratoriyası, 4 kardiocərrahiyyə əməliyyat otağı, 25 kardiologiya-reanimasiya yatağı, ümumi analiz və bütün növ xəstəliklər üzrə şöbələr fəaliyyət göstərir ki, onlar da dünyanın ən müasir tibbi texnika və avadanlıqları ilə təchiz olunub. Bu texnikanın bir çoxu ölkəmizin tibb sistemində ilk dəfə tətbiq olunur. Bakı Sağlamlıq Mərkəzində istifadəyə verilən kompüter tomoqrafiyası, rəqəmsal rentgen, ultrasəs və digər müasir tibbi aparatlar xəstələrin müalicəsində əhəmiyyətli rol oynayır.









### Zövq oxşayan səliqə-sahman, sakitlik, nəzarət və nəzakətli bələdçilik...

Bu yeganə sağlamlıq mərkəzidir ki, tibbi personal və digər texniki işçilərini Bakı şəhərinin iki istiqamətindən işə aparıb-gətirmək üçün nəqliyyat vasitəsi də ayrılıb. Əhalinin təsərrüfathesablı bu mərkəzə daha çox müraciətinin səbəbləri məhz bir sıra amillərdir ki, onlar da tibbi xidmətin yeni üsul və vasitələrindən istifadə, eyni zamanda müayinə və müalicənin digər xəstəxanalara nisbətən ucuz olmasından ibarətdir. 550 tibbi kadrın çalışdığı mərkəzin qarşısında duran əsas vəzifə əhaliyə daha sərfəli və keyfiyyətli səhiyyə xidməti göstərməkdir. Burada yaradılan şərait də məhz deyilənləri təsdiqləyir. Mərkəzin ayrı-ayrı korpuslarında ilk növbədə zövq oxşayan səliqə-sahman, sakitlik, vebkameralar vasitəsilə nəzarət və nəzakətli bələdçilik diqqəti cəlb edir. Poliklinikanın xidmət şöbəsinin koordinatoru Şəkər Qasımovanın bu sahədəki təcrübəsi isə yolu buradan düşən hər kəsin onu minnətdarlıqla xatırlamalarına səbəb olur. Xəstələrin, eləcə də tibbi personalın asudə vaxtlarının səmərəli təşkili üçün yaradılan "təbiət guşəsi"ndə bir neçə dəqiqə dincəlmək kifayətdir. Bura dekorasiyalarla elə tərtib edilib ki, sanki ucu-bucağı görünməyən meşəlikdəsən.

Bakı Sağlamlıq Mərkəzi ilə tanışlıqdan sonra bir daha bu qənaətə gəlirsən ki, səhiyyə sisteminin keyfiyyətcə yeni dövrün tələblərinə uyğunlaşdırılması, əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir tibb infrastrukturunun yaradılması Azərbaycanda həyata keçirilən sosialyönümlü siyasətin mühüm tərkib hissəsidir. Bu istiqamətdə ardıcıl və sistemli olaraq həyata keçirilən islahatların nəticəsi kimi ölkədə səhiyyə sisteminin maddi-texniki bazası və infrastrukturu yeniləşir, ən müasir texnologiyaların tətbiqi vətəndaşlara xidmətin səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsini təmin edir.

Burada yaradılan şərait bir daha göstərir ki, ölkəmizin iqtisadi qüdrəti artdıqca sosial sahəyə daha çox diqqət verilir və bu proses davamlı xarakter alır. Təsadüfi deyil ki, Azərbaycan Prezidentinin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da səhiyyəyə ayrılan vəsaitin ümumi daxili məhsulda payının dinamik şəkildə artırılması, onun səmərəli və məqsədyönlü istifadəsini təmin edən mexanizmlərin yaradılması nəzərdə tutulur.

*Məhəmməd NƏRİMANOĞLU,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*

# Boyatda bir xəzinə var



Bu gün Ağcabədi ölkəmizin sosial-iqtisadi cəhətdən inkişaf etmiş regionlarındandır. Ağcabədi şəhəri də, rayonun yaxın-uzaq kəndləri də abad görkəmi, səliqə-sahmanı, yaraşığı ilə diqqət çəkir.





Bu sırada Boyat kəndinin özünəməxsus yeri var. Bu kənd qədim tarixə malikdir. Tarixi mənbələrdən məlumdur ki, Azərbaycan xalqının ən qədim tayfalarından biri də Bayat tayfası olmuşdur. Boyat kəndində çox sayda arxeoloji abidələr mövcuddur. Buradakı Qışaltıtəpə, Qəbiristanlıq təpə, Qoşatəpə, Qalaqtəpə kurqanları tunc dövrünə aiddir. Şəhərgah isə orta əsrlərə məxsusdur. Qarabağ xanı Pənahəli xan XVIII əsrdə məşhur Boyat qalasını da məhz bu şöhrətli məkanda inşa etdirmişdir.

"Kitabi-Dədə Qorqud" dastanında adı coğrafi məkan kimi dönə-dönə çəkilən Boyat qədim türkdilli tayfalardan birinin adı olmuşdur. Boyat sözünün mənası varlı, dövlətli, köhnə deməkdir. Boyat kəndi Qarabağ xanlığının ilk iqamətgahı olmuş, 1747-1752-ci illərdə Pənahəli xan Qarabağı məhz buradan idarə etmişdir.

Tarixə qısa ekskursu təsadüfən etmədik. Dünəni şöhrətli və qürurverici olan Boyat kəndinin bu günü, müasir həyatı da diqqətçəkəndir. Kəndin sosial ehtiyacları dövlət tərəfindən yüksək səviyyədə həll olunub. Kənd sakinləri rahat asfalt yoldan, elektrik enerjisinin, suyun, təbii qazın fasiləsiz verilməsindən çox razıdırlar. Kəndə üz tutmağımızın əsas səbəbi isə kifayət qədər məşhurlaşmış Boyat kənd kitabxanası ilə yaxından tanışlıq idi. Elimizin əziz bayramı olan Novruzun yaratdığı xoş ovqat, yüksək əhvali-ruhiyyə hələ də davam edirdi. Qarşımıza çıxan kənd sakinlərinin gülər üzü, fərəh dolu baxışları firavan həyatın, xoş güzəranın ifadəsi kimi məmnunluq yaradırdı.

Nəhayət, bu da axtardığımız ünvan. Yaraşıqlı binanın qarşısında böyük söz ustadı, mütəfəkkir şairimiz Məhəmməd Füzulinin büstü qoyulub. Ətraf səliqə-sahmanlıdır. Kitabxananın müdiri Təhminə Quliyeva Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsinin məzunudur. 2012-ci ildən kitabxanaya rəhbərlik edir. Bu səmimi və mehriban xanımın söhbəti isə çox maraqlıdır:

- Bizim üçün nümunəvi şərait yaradılıb. Biz bu imkandan bəhrələnərək çalışırıq ki, kitab təbliğatını hər vasitə ilə genişləndirək. Etiraf etməliyik ki, indi adamlarda kitab oxumaq marağı yüksək səviyyədə deyil. Bəziləri bunu kompüter əsri, internet dövrü ilə əlaqələndirirlər. Bir zamanlar kitab oxumağı mənəvi ehtiyac sayar, bu vərdişdən xüsusi zövq alardılar. Bu ənənə inkişaf etmiş dünya dövlətlərində indi də davam edir. Bu bir həqiqətdir ki, daha çox mütaliə edən insanların mədəniyyəti, intellektual səviyyəsi yüksək olur.

Biz üzərimizə düşən vəzifənin məsuliyyətini yüksək dəyərləndiririk. Hər səhər kitabxananın qapılarını açıb oxucu gözləməklə işimizi bitmiş saymırıq. Vaxtaşırı keçirdiyimiz mədəni-kütləvi tədbirlərin mərkəzində kitaba sevgi dayanır. Təbii ki, çəkilən zəhmət hədər getmir. Bizi qane etməsə də, xeyli oxucumuz var. Onlardan Mübariz Məmmədov, Aysun Hüseynova, Cəfər Cəfərov və Fidan Hüseynova daha fəaldır.

Təhminə xanımın söhbətindən öyrənirik ki, kitabxanada fonddakı kitabların ümumi sayı 7.461 nüsxəsidir. Kitabxana latın qrafikası ilə çap olunmuş 3.293 ədəd kitab alıb. Respublikanın tanınmış ziyalıları Boyat kənd kitabxanasını ziyarət etmiş, burada gördüklərimizdən xoş təəssüratlar almışlar. Azərbaycan Yazıçılar Birliyinin sədri Anar, şair Fikrət Qoca, yazıçı-publisist Rəşad Məcid, AYB-nin Güney Azərbaycan şöbəsinin rəhbəri Azuz Sayman müxtəlif zamanlarda Boyat kənd kitabxanasını ziyarət etmişlər.

Milli Məclisin deputatı, yazıçı Aqil Abbas bu kəndin yetirməsidir, burada doğulub, boya-başa çatıb. Ən əsası da odur ki, bu kitabxananın tikilməsi, səmərəli fəaliyyət göstərməsi məhz onun adı ilə bağlıdır. Təhminə xanım söhbətində Aqil Abbasın kitabxanaya 500 ədəd kitab hədiyyə etdiyini minnətdarlıqla vurğuladı.

Boyat kəndində dəyəri, qiyməti ölçüyə sığmayan bir xəzinə var. Bu xəzinənin daş-qaşı, ləl-cavahiratı insanlara kamilləşməyin, qismətinə düşən ömrü mənalı yaşamağın yollarını göstərən kitablar...

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Ermənistanın cəhənnəmdən fərqi yoxdur

## Sosial-iqtisadi problemlər burulğanında boğulan ölkədə narazılıqların miqyası daha da genişlənir

Sosial-iqtisadi sahədə yaşanan problemlərin getdikcə dərinləşməsi Ermənistanda əhalinin narazılığının əvvəlki kimi yüksək həddə olması ilə müşayiət edilir. Bunu keçirilən çoxsaylı etiraz aksiyaları da aydın şəkildə nümayiş etdirir. Aksiyaların təhlili onların əsas etibarı ilə sırf sosial-iqtisadi tələblər üzərində qurulduğunu göstərir. Məsələn, Ermənistanın Armavir vilayətinin sakinləri bir aya yaxındır keçirdikləri etiraz aksiyasını Yerevanda davam etdirirlər.

### Etirazlar səngimək bilmir

Erməni mediasının yazdıqlarından bəlli olur ki, narazı vətəndaşlar çıxış yolunu etirazların miqyasını genişləndirməkdə görürlər. Sakinlər bildirirlər ki, onların yaşadıqları vilayətdə özbaşınalıq hökm sürür. Bu ölkənin cəhənnəmdən fərqi yoxdur. İşsizlik hökm sürür, kənd təsərrüfatı ilə məşğul olmaq üçün münbit torpaq yoxdur. Vilayətə aid kəndlərin icra nümayəndələri torpaqları mənimsəyiblər. Bundan başqa, əvvəllər fəaliyyət göstərən şüşə zavodu fəaliyyətini dayandırıb. Vilayətin sakinləri ağır sosial böhranla üz-üzə qaldıqlarını qeyd edirlər. Onlar hökumətdən yaranan problemin mümkün qədər tez həllini istəyirlər.

Bu günlərdə Ermənistanda qazlı içkilərin istehsalı ilə məşğul olan sahibkarlar da Yerevanda hökumət binasının qarşısında etiraz aksiyası keçiriblər. İş adamları ölkənin Vergi Məcəlləsinə təklif olunan dəyişikliklərə etiraz edirlər.

Aksiya iştirakçıları bildiriblər ki, verginin artırılması nəticəsində işlədikləri sahə məhv olacaq: "Bu sektordakı kiçik və orta sahibkarlıq müflisləşəcək. Bunun dövlətə xeyri olacağını düşünmürük. Bu daha çox bəzi qrupların mənafeyinə xidmət edəcək. Ona görə də bu addım atılıb".

### "Lombardlar bağlanacaq, adamlar işsiz qalacaq"

Ermənistan paytaxtı Yerevanda lombard və valyutadəyişmə məntəqələrinin əməkdaşları da etiraz aksiyası keçiriblər. Sahibkarlar "Dövlət rüsumu haqqında" qanuna təklif olunan dəyişikliklərə etiraz ediblər. Dəyişikliklərdə dövlət rüsumunun 60 dəfə artırılması nəzərdə tutulub.

Hazırda lombardlar 100 min dram və ya 205 dollar məbləğində rüsum ödəyirlər. Dəyişikliklər qüvvəyə minəndən sonra isə bu rəqəm 6 milyon dram və ya 12 min 296 dollar olacaq. Aksiya iştirakçısı Ayk Saakyan vurğulayıb: "Bu qərar yoxsulluğu artıracaq, lombardlar bağlanacaq, adamlar işsiz qalacaq. Biz işləməsək, ailəmizi kim saxlayacaq?"

Aksiya iştirakçıları bildiriblər ki, hazırda Yerevanda və vilayətlərdə bu sahədə 1300 nəfər çalışır.

### Teatr direktoru vəzifəsindən azad olunub

Bunun ardınca Ermənistanda növbəti bir etiraz aksiyası keçirilib. Yerevanın mərkəzindəki hökumət binasının qarşısına toplaşanlar bu dəfə ölkənin mədəniyyət nazirinin "incəsənət islahatına" qarşı çıxıblar.

Yeni hökumətin mədəniyyət naziri vəzifəsini icra edən Nazəni Qəribyan Milli Opera və Balet Teatrının direktoru və bədii rəhbəri Konstantin Orbelyanı erməni dilində pis danışdığı üçün vəzifəsindən azad edib. Nazir əvəzi bu qərarını onunla əsaslandırıb ki, erməni dilini bilməyən məmur dövlətin teatrında vəzifə tuta bilməz.

Meydana toplaşan və baş nazir Nikol Paşinyanla görüş tələb edən etirazçılar bildiriblər ki, nazirin arqumenti incəsənətə aid edilə bilməz. "Musiqinin dili yoxdur" şüarını səsləndirən incəsənət xadimləri direktorun vəzifəsinə bərpa edilməsini və N.Qəribyanın istefaya göndərilməsini tələb edirlər. Onlar nazirliyi məhkəməyə verəcəklərini də bildiriblər.

### Şirkətlər güclərini birləşdirmək qərarına gəliblər

Ümumiyyətlə, görünən budur ki, Ermənistanda sosial zəmində aksiyalar getdikcə artır. Ölkədə müsbətə doğru dəyişən isə nəsə yoxdur. Hətta iş o yerə çatıb ki, Ermənistanda xaricdən ayrılan kapital sayəsində fəaliyyət göstərən şirkətlər hökumətin yürütdüyü vergi-iqtisadi siyasətindən ciddi şəkildə narazıdırlar.

"Qraparak" qəzeti etibarlı mənbələrinə istinadən yazır ki, xarici kapitalla işləyən şirkətlər Ermənistan hökumətinə qarşı güclərini birləşdirmək qərarına gəliblər və bu məqsədlə onların nümayəndələri vaxtaşırı görüşərək mövcud vəziyyəti, eləcə də Ermənistan hakimiyyəti ilə münasibətlərini və gələcək addımlarını müzakirə edirlər.

Mənbələrin sözlərinə görə, Ermənistan hökumətinə qarşı "ittifaq" yaradan həmin şirkətlərin sırasına "Lidian Ermənistan", "Veolia Cur", "Snitek", bəzi rabitə operatorları və digər şirkətlər daxildir: "Promlemlərinin həll olunması əvəzinə daha da böyüdüyünü görən bu şirkətlər Ermənistan hökumətini arbitraj məhkəməsinə verə bilərlər. Artıq "Lidian Ermənistan" 3 aydan sonra məhkəməyə şikayət edəcəyi barədə xəbərdarlıq edib və başqaları da vəziyyətin sonrakı inkişafının necə olacağını gözləyirlər. Amma bu şirkətlərin arbitraj yoluna baş vurması Ermənistan dövləti üçün olduqca təhlükəlidir. Təkcə ona görə yox ki, hökumət iri məbləğdə cərimə ödəməli olacaq. Həm də ona görə ki, bu, əcnəbi biznesmenlər üçün Ermənistanın investisiya cəlbediciliyinin daha da azalmasına və perspektivdə Ermənistanın xarici investisiyalardan tamamilə məhrum olmasına gətirib çıxara bilər".

### Oliqarx arzusunda olan yeni vəzifəlilər

Bütün bunlar fonunda maraq doğuran daha bir hal isə hökumətdə aparıcı vəzifə tutan şəxslərin ölkədə yeni oliqarxlara çevrilmək niyyətidir. Məsələn, "Jamanak" yazır ki, onlardan biri Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin (MTX) direktoru Artur Vanetsyandır və bu şəxs yanacaq bazarı ilə maraqlanır: "Artur Vanetsyan son zamanlar Ermənistanda bazar mühitinin araşdırılması ilə məşğuldur. Məlumatımıza görə, onu daha çox yanacaq bazarı maraqlandırır. Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları benzin idxalçıları, onların satışı və bu sahədə fəaliyyət göstərmək üçün lazım olan sənədlərlə maraqlanırlar. Əldə etdiyimiz məlumata əsasən, Vanetsyan bazara yeni yanacaq idxalatçısı kimi girmək istəyir".

Məhz belə vəziyyətdə məmurların xalqı düşünməsi mümkünsüz sayılır və bu halın Ermənistanda daha böyük sosial gərginliyə yol açması gözlənilir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

*Təkrar*

## "Azərsu" ASC Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmiş 15.01.2019-cu il tarixli 890 saylı Sərəncama əsasən Nəqliyyat vasitələrinin və xüsusi texnikanın satın alınması məqsədilə

### *açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

**LOT-1:** Nəqliyyat vasitələrinin və xüsusi texnikanın satın alınması;

**LOT-2:** Qəza bərpa maşınlarına quraşdırılacaq avadanlıqların satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Tikilməkdə Olan Obyektlərin Müdiriyyətinin Satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinə (əlaqələndirici şəxs: İlqar Tağıyev, telefon: 431- 47-67/1033 və İntizam Novruzov, 431 -47- 67/3019) ala bilərlər.

**İştirak haqqı hər bir LOT üçün: 300 manat**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ 37 NABZ 01350100000000001944**
**SWIFT.BIK: AİİBAZ2X**
**H/h: AZ 65 AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *son beş il ərzində icra edilmiş ən azı bir oxşar müqavilə.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **26 aprel 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **07 may 2019-cu il saat 16:00-a** qədər, Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Tikilməkdə Olan Obyektlərin Müdiriyyətinin Satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **08 may 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası 2019-cu il üçün

### *tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir:**

LOT - 1 Beynəlxalq tədbirlərin keçirilməsi işlərinin satın alınması.

Tenderdə iştirak etmək üçün iddiaçılar bir LOT üzrə 150 manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, Xəqani küçəsi, 57 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Nəsrullayeva Rübabə Sultəli qızı. Əlaqə telefonu: 493-51-24

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**KODU: 210005**
**Büdcə səviyyə kodu: 3**
**Büdcə təsnifatın kodu: 142314**
**M/HESAB: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**AXUNDOV ADINA MİLLİ KİTABXANA**
**VÖEN: 1700241041**
**HESAB: AZ27CTRE00000000000005468301**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tender iştirakçılarına təklif edilir ki, tender təkliflərini "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: yüksək keyfiyyət, aşağı qiymət, analoji işlərdə təcrübə, müqavilənin vaxtında icrası, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat;*
- *tender təklifinin təminatı (zərflərin açıldığı gündən 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində bank zəmanəti (zərflərin açıldığı gündən 60 bank günü qüvvədə olmalıdır).*

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 16 may 2019-cu il saat 17:00-dək təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçılar 2 nüsxədə (əsli və surəti) tərtib olunmuş tender təklifi və bank zəmanətini 24 may 2019-cu il saat 17:00-dək ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə təqdim etməlidirlər.

Tender zərfləri 27 may 2019-cu il saat 12:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu dərman, sarğı ləvazimatlarının və materiallarının satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

**- Dərman, sarğı ləvazimatlarının və materiallarının satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərdabi, 80 (əlaqələndirici şəxs: Tender komissiyası (012 530 29 03)) ünvanından ala bilərlər.

**İştirak haqqı: 300.00 (üç yüz) manat**
**VÖEN: (DSMF)1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: 142319**
**Büdcə səviyyəsinin kodu: 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddəti bitdikdən sonra 30 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **26 aprel 2019-cu il saat 17:00-a,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **06 may 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərdabi, 80 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **07 may 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərdabi, 80 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Telefon Rabitəsi" MMC tərəfindən 03.04.2019-cu il tarixdə elektrik təsərrüfat mallarının satın alınmasına dair açıq tender keçirilmişdir. Üç iddiaçı tərəfindən şərtlər toplusunun alınmasına baxmayaraq, bir iddiaçı tender komissiyasına qiymət təklifi təqdim etmişdir. Digər iki iddiaçı tərəfindən qiymət təklifi təqdim edilmədiyindən tender ləğv edilmişdir.

*Azərbaycan Respublikası Bakı Şəhəri İcra Hakimiyyəti Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi tərəfindən 29.11.2005-ci ildə Bakı şəhəri, Nərimanov rayonu, M.Əlizadə, 20 ünvanına Azər Əhliman oğlu Əmiraslanovun adına verilmiş 540,0 kvadratmetr qeyri-yaşayış sahəsinin 003163 nömrəli (seriya QYM) Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

*Təkrar*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti

### *açıq tenderə dəvət edir*

**Özünəməşğulluq tədbirlərinin təşkili çərçivəsində respublikanın rayonları üzrə əhalinin özünəməşğulluğunun təmin olunması ilə bağlı tələb olunan kənd təsərrüfatı mallarının satın alınması** ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti açıq tenderə dəvət edir.

Tender 1 LOT üzrə keçirilir:

**- Özünəməşğulluq tədbirlərinin təşkili çərçivəsində respublikanın rayonları üzrə əhalinin özünəməşğulluğunun təmin olunması ilə bağlı tələb olunan kənd təsərrüfatı mallarının satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (əlaqələndirici şəxs: Cavadov Mövlud; (012) 596-35-26) ünvanından ala bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 3000 (üç min) manat.**
**Satın alan təşkilat: Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESAB: AZ18CTRE00000000000004788202**
**Büdcə gəlirlərinin təsnifat kodu: 142340**
**Büdcə səviyyəsinin kodu: 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **26 aprel 2019-cu il saat 17:00-a,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **06 may 2019-cu il saat 17:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85** ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **07 may 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**

Rabitə kabellərinin və birləşdiricilərin (fast konnektor) satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**2000 (iki min) manat iştirak haqqını**
sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1, kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **15 may 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1% Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **23 may 2019-cu il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **24 may 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: **Məmmədov Faiq,**
**tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Aparatında istismarda olan SERP proqram təminatına texniki dəstək xidmətlərinin satın alınması məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq elan edilən tenderdə SERP proqram təminatı ilə bağlı iddiaçı şirkət tərəfindən təqdim edilən sualların cavablandırılması üçün müəyyən vaxt tələb olunur.

Bununla əlaqədar olaraq, iddiaçı şirkət tərəfindən daxil olan sualların cavablarının dəqiq əks etdirilməsi məqsədilə Tender komissiyasının qərarı ilə açıq tenderin keçirilməsi üçün elan edilən tender təkliflərinin açılma tarixi 20 təqvim günü müddətinə uzadılmışdır.

Tender təklifi və bank zəmanəti möhürlənmiş ikiqat zərfdə 29 aprel 2019-cu il saat 17:00-dək İqtisadiyyat Nazirliyinə (ünvan: Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət Evi) təqdim edilməlidir. İddiaçıların təklif zərfləri 30 aprel 2019-cu il saat 12:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası və katibliyin rəhbərliyi İnformasiya mərkəzinin müdiri Fərid Orucova əzizi
**AZƏR İMANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı Xanlar Fətiyev Rafael Tağıyevə qardaşı
**TOFİQ TAĞIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təlatüm Quliyev ailəsi ilə birlikdə Rafael Tağıyevə qardaşı
**TOFİQ TAĞIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Vaqif Ələkbərov və Zaur Ələkbərzadə ailələri ilə birlikdə Rafael Tağıyevə qardaşı
**TOFİQ TAĞIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Mərkəzi Neftçilər Xəstəxanasının kollektivi xəstəxananın Oftalmologiya şöbəsinin müdiri Elşən İbrahimova atası
**NAZİM MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cavanşir Tağıyev, Gülağa Şirinov və Rövşən Rzayev Rafael Tağıyevə qardaşı
**TOFİQ TAĞIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universiteti III cərrahi xəstəliklər kafedrasının əməkdaşları kafedranın müəllimi Telman Əmirova bacısı
**GÖVHƏR CƏLAL QIZI ƏMİROVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9119
Sifariş 1072
Qiyməti 40 qəpik